


## Şuşadan dünyaya, dünyadan Şuşaya...

8

Səs

№ 131 (6572) 27 iyul 2022-ci il. Qiyməti 60 qəpik

## İlham Əliyevin qətiyyətli kadr islahatları: tələblər artır!



2

**Həyata keçirilən islahatlar idarəçilik sistemində yeniləşmə faktorunu daha geniş müstəviyə çıxarır**



## Bahalı neft erası bitməyəcək, əksinə...

5

# ZƏFƏR TARIXIMIZI yazanlar!



3





16

## "Neymar PSJ-də sehrini itirdi"

## Ermənistan cəmiyyətində YANLIŞLIQLAR



4

## Milli Məclisdə "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi hazırlanır



3

SİYASİ RAKURS+ÖZƏL

# İlham Əliyevin qətiyyətli kadr islahatları: tələblər artır!

*Həyata keçirilən islahatlar idarəçilik sistemində yeniləşmə faktorunu daha geniş müstəviyə çıxarır*

Bu günlərdə Prezident İlham Əliyevin Masallı, Lerik və Göygöl rayonlarına yeni icra başçılarını təyin etməsi və qəbul zamanı bir sıra mühüm mesajlarını verməsi ilk olaraq belə qənaətə gəlməyə zəmin yaradır ki, aparılan kadr islahatları bütövlükdə yeni mərhələyə keçid alır və eyni zamanda, vəzifəyə təyin olunan şəxslər qarşısında daha qətiyyətli tələblər qoyulur. Sirr deyil ki, dövlətimizin başçısı daha əvvəlki təyinatlarında da bir sıra mühüm tapşırıq və tövsiyələrini irəli sürərək dövlət məmurlarının bilavasitə xalqa xidmət etməli olduqlarını, o cümlədən, üzərlərinə düşən məsuliyyətlərini icra edə bilməyən, yaxud qanunsuz əməllərə yol verən məmurların cəzalandırılacaqlarını xüsusi olaraq vurğulayıb. Və biz - vətəndaş olaraq xalqı dövlətin apardığı siyasətdən narazı salan, xalqa xidmət etməyərək yalnız öz mənfəətlərini güdən harınlamış məmurların da aqibətlərinin necə başa çatdığının şahidləri olmuşuq və olmaqdayıq. Məhz bu xüsusda biz Prezident İlham Əliyevin illər əvvəl vurğuladığı kəlamını da xatırlatmalıyıq. O öz çıxışlarının birində qeyd etmişdi ki, xalqın bir nömrəli xidmətçisidir və onun etimad göstərdiyi hər bir dövlət məmuru xalqın, vətəndaşın xidmətçisi olmalıdır!



### Bu tələblər Azərbaycanın potensialının effektiv artımı üçün yeni impuls oldu

Beləliklə, ölkə rəhbəri yeni təyin etdiyi icra başçılarını qəbul edərkən vurğuladı ki, burada əsas rol peşəkar yanaşmada və rəhbərlərin şəxsi təşəbbüslərindən ibarətdir. Həmçinin, Prezident İlham Əliyev vurğuladı ki, zaman-zaman bəzi yerli idarəetmə orqanları öz işlərinə o qədər məsuliyyətsiz yanaşıblar ki, dövlətin onların yerinə iş görəcəyini, hansısa layihələr icra edəcəyini sanmağa başlayıblar. Dövlət başçımızın da sözlərindən belə nəticə hasil etmək mümkündür ki, bəzi yerli icra orqan rəhbərlərinin qapılarını yüzlərlə sahibkarlar döyərək öz layihələrini təklif ediblər, amma həmin təkliflər ya qulaqardına vurulub, ya da məmurlar sahibkarlara qarşı qanunsuz tələblər irəli sürməklə cinayət əməllərinə yol veriblər. Bütün bunların necə başa çatmasını isə hər kəs yaxşı bilir. Ona görə də, cənab İlham Əliyev budəfəki fikirlərində də qətiyyətli mövqe ortaya qoymaqla yeni tələblərini irəli sürdü və bu tələblər Azərbaycanın potensialının effektiv artımı üçün yeni impuls oldu. Belə ki, dövlət başçımız qeyd etdi ki, İcra Hakimiyyətlərinin (İH) rəhbərlərinin özləri öz qarşılarında yeni tələblər qoymalı, iş keyfiyyətlərini artırmalı, perspektivi olan investorları layihələrə cəlb etməli, bu istiqamətdə prinsipiallıqlarını nümayiş etdirməlidirlər.

### Fakt budur ki, Azərbaycanda islahatlar prosesi dövrün tələbinə uyğun olaraq daha da təkmilləşdirilir

Məsələn, Masallı Lerik, Göygöl kimi rayonların turizm potensiallarını nəzərə alan dövlətimizin başçısı bu bölgələrdəki gözəl və sıx meşələri, dağ massivlərini, gölləri və şəlalələri xatırladaraq bütün bunlardan istifadə edilməklə müasir turizm mərkəzlərinin yaradılması mümkünlüyünü vurğuladı.

Beləliklə, fakt budur ki, Azərbaycanda islahatlar prosesi dövrün tələbinə uyğun olaraq daha da təkmilləşdirilir və bu prosesdə Prezident İlham Əliyev qətiyyəti bir daha ən yüksək səviyyədə nümayiş etdirilir. Bu, həm də belə bir əsaslanmaya söykənir ki, aparılan kadr islahatları idarəçilik sistemində yeniləşmə faktorunu daha geniş müstəviyə çıxarır. Eləcə də, Azərbaycanın dünyada potensial innovasiyalar, tərəqqilər ölkəsi kimi nüfuz qazanması da yeni qərarların verilməsinə zəmin yaradır və bu qərarlar əlbəttə ki, çox yaxın zamanlarda öz uğurlu bəhrələrini verəcəkdir.

### Azərbaycanın beynəlxalq miqyasdakı inkişaf potensialı məhz daxili inkişafdan güc alır

Bütövlükdə isə Vətən müharibəsindən sonra regionda yeni situasiyanın yaranması da belə deməyə zəmin verir ki, Azərbaycanın beynəlxalq miqyasdakı inkişaf potensialı məhz daxili inkişafdan güc alır və bunun üçün də dövlətimizin başçısı kadr islahatlarını həyata keçirməklə geniş spektorlu, habelə paralel siyasət mexanizmini reallaşdırır. Bu baxımdan da yeni təyin olunan yerli idarəetmə orqanları rəhbərliklərinin qarşısına qəti, birmənalı tələblər qoyulmaqdadır. Ən əsası isə, xalqın, dövlətin firavanlığının, sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılması yönündə münbit addımlar atılır.

***Rövşən RƏSULOV***

## “Əlaqələrin genişləndirilməsinə dair müzakirələr davam etdirilir”

“Prezident İlham Əliyevin Avropa Komissiyasının Prezidenti ilə geniş tərkibdə görüşünün keçirilməsi Azərbaycan-Avropa İttifaqı əlaqələrinin gələcək yol xəritəsinin müəyyənləşdirilməsi baxımından kifayət qədər önəmlidir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Aytən Qurbanova deyib.



Onun sözlərinə görə, görüş çərçivəsində enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması Azərbaycan Respublikasının yeni formalaşan beynəlxalq sistem daxilində əsas faktorlardan birinə çevrilməkdə olduğunu da aydın şəkildə ifadə etmiş olur: ”Artıq Azərbaycan Respublikası Avropanın yeni enerji xəritəsində etibarlı tərəfdaş qismində çıxış edərək ikitərəfli əməkdaşlıq imkanlarını da yenidən nəzərdən keçirir və fərqli istiqamətlər üzrə əlaqələrin genişləndirilməsinə dair müzakirələr davam etdirilir. Həmçinin Azərbaycan-Avropa İttifaqı əlaqələrinin sadəcə enerji təminatı ilə məhdudlaşmayacağını, alternativ enerji mənbələrindən istifadə imkanları, ticarət əlaqələrinin genişləndirilməsi, Şərqlə Qərb arasında daha təhlükəsiz yol olan Orta dəhlizin gələcək perspektivi və Şərq tərəfdaşlığı proqramı çərçivəsində əməkdaşlığın daha da möhkəmləndirilməsi kimi məsələlərin də gündəmdə olduğuna dair açıq mesajlar verilmiş oldu. Ona görə də, bu görüş sadəcə Azərbaycan Respublikası üçün deyil, ümumilikdə region dövlətləri üçün də yeni mərhələnin formalaşmaqda olduğunun və bu mərhələdə ölkəmizin kifayət qədər önəmli rol oynadığının bariz nümunəsidir”.

***Arzu Qurbanlı***

## ƏRƏB MƏTBUATI:
## “Azərbaycan Qoşulmama Hərəkatı çərçivəsində gənclərin sülh naminə səylərini birləşdirir”

Ərəb mətbuatında Bakıda keçirilən Qoşulmama Hərəkatının (QH) Gənclər Sammiti haqqında məqalələr dərc olunub. AZƏRTAC xəbər verir ki, Misir, Əlcəzair və İordaniyanın rəsmi agentlikləri və portallarında yayımlanan materiallarda Hərəkata sədrlik edən Azərbaycanın gənclərin sülh naminə səylərini birləşdirdiyi vurğulanıb.

Əlcəzairin rəsmi APS agentliyi və ”Əl Hərir” portallarında QH-nin Gənclər Sammitinin yüksək səviyyədə təşkil olunduğu diqqətə çatdırılıb. Xəbərlərdə qeyd olunub ki, tədbirdə iştirak edən Əlcəzairin Ali Gənclər Şurasının prezidenti Mustafa Haldaui öz çıxışında gənclərin sülh və təhlükəsizlik naminə tərəfdaşlığının əhəmiyyətini vurğulayıb, Prezident Əbdülməcid Təbbunun gənclərin cəmiyyət həyatının müxtəlif sahələrində daha fəal iştirakı ilə bağlı fəaliyyətindən bəhs edib. O, həmçinin Azərbaycanın QH çərçivəsində Gənclər Sammitinin keçirilməsi təşəbbüsünü alqışlayıb.






İordaniyanın rəsmi Petra agentliyi, ”Mobtada”, ”Əs Sabil” portalları və Misirin ”Əl Əhram” qəzetində İordaniya nümayəndəsi Baha Qudahın çıxışı ilə bağlı materiallar yayımlanıb. Yazılarda qeyd olunub ki, iordaniyalı gənc Azərbaycanın sədrliyi ilə QH çərçivəsində gənclərin həmrəyliyinin önəmini vurğulayıb, İordaniya şahzadəsi Hüseyn bin Abdullanın liderliyi ilə öz ölkəsində aparılan gənclər siyasətindən bəhs edib.

# ZƏFƏR TARİXİMİZİ yazanlar!



Vətən müharibəsini qələbə ilə başa vuran Azərbaycan müharibədən sonra hərbi əməliyyatlardan zərər çəkmiş insanlara, xüsusən də şəhid ailələrinə, qazilərə hərtərəfli qayğı və diqqət göstərir. Bu, Azərbaycan dövlətinin sosial siyasətinin əsas istiqamətlərindən biridir. Bu sahədə həyata keçirilən tədbirlər sistemli və ardıcıl xarakter daşıyır. Belə ki, Vətən müharibəsi zamanı torpaqlarımızın azad olunmasında qəhrəmanlıq göstərmiş şəxslərə və onların ailə üzvlərinə xüsusi diqqət, qayğı ilə yanaşılır, onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş imtiyaz və müavinətlərin icrası təmin olunur, bu istiqamətdə yeni sosial dəstək proqramları həyata keçirilir. Prezident İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə bu sahədə müxtəlif böyük maliyyə tutumlu proqramlar həyata keçirilir. Dövlətimiz həm I Qarabağ, həm də II Qarabağ müharibəsinin ağır nəticələri ilə üzləşənlərə həssas münasibət göstərmək prinsipini qoruyub saxlayır. Bu qəbildən olan vətəndaşlarımızın sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir.

## ”BAKI, SUMQAYIT VƏ ABŞERON RAYONLARINDA ŞƏHİD AİLƏLƏRİNİN EVLƏ TƏMİNATI MƏSƏLƏLƏRİ ARTIQ YEKUNLAŞMAQ ÜZRƏDİR”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Araz Əhmədovu Masallı, Əkbər Abbasovu Lerik və Elvin Paşayevi Göygöl rayon icra hakimiyyətlərinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edərkən bildirdiyi kimi, şəhid ailələrinə xüsusi diqqət göstərilməlidir: ”Dövlət tərəfindən bu diqqət daim göstərilir. İkinci Qarabağ müharibəsindən əvvəl və İkinci Qarabağ müharibəsindən sonra şəhid ailələri daim diqqət mərkəzindədir. Bilirsiniz ki, mənim şəhid ailələri, müharibə əlilləri ilə çoxsaylı görüşlərim olub. Onların məişət problemləri dövlət xətti ilə həll olunur, 12 min 500-dən çox şəhid ailəsinə dövlət tərəfindən mənzillər, fərdi evlər verilmişdir, minlərlə minik maşınları verilmişdir. Bu proses davam etdirilir. Bakı, Sumqayıt və Abşeron rayonlarında şəhid ailələrinin evlə təminatı məsələləri artıq yekunlaşmaq üzrədir.”

Ötən dövr ərzində şəhid ailələri və müharibə əlilləri üçün icra olunan ən geniş və mühüm fəaliyyətlərdən olan mənzillə təminat proqramı 5 dəfə genişləndirilib. Şəhid ailələri və müharibə əlillərinə 2021-ci ildə 3000, postmüharibə dövründə 3500 mənzil verilib. Ümumilikdə isə 12 500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin edilib.

## ”SOSİAL ƏDALƏT, BÜTÖVLÜKDƏ ƏDALƏT PRİNSİPLƏRİ CƏMİYYƏTİN ƏSAS PRİNSİPLƏRİNDƏN BİRİDİR”

Ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, şəhid ailələrinə dövlətimiz tərəfindən sosial qayğılarının həll edilməsi üçün ardıcıl olaraq zəruri tədbirlər görülür. Ölkəmizdə şəhidlərə və onların ailələrinə, əlillərə olan münasibət dövlətimizin məqsədyönlü, düşünülmüş və ardıcıl siyasətidir. Bu, dövlət başçısının siyasətinin əsasında ölkənin hər bir vətəndaşına münasibətdə ədalət və humanizm prinsipləri dayandığını bir daha təsdiqləyir. Dövlət başçısı yeni təyin olunan icra başçılarına tapşırıqlarını verərkən bildirib ki, fəaliyyətinizdə sosial ədalət prinsipinə əməl etməlisiniz: ”Sosial ədalət, bütövlükdə ədalət prinsipləri cəmiyyətin əsas prinsiplərindən biridir və sağlam cəmiyyətdə ədalət hökm sürür. Biz isə sağlam cəmiyyət qururuq və demək olar ki, bu işdə müvəffəqiyyətlər qazanmışıq. Bu gün Azərbaycan cəmiyyəti həmrəylik nümayiş etdirir, Azərbaycan cəmiyyəti ölkədə gedən prosesləri dəstəkləyir, bizim xarici, daxili siyasətimizi dəstəkləyir. Çünki bizim siyasətimiz Azərbaycan xalqının rifah halının yaxşılaşmasına istiqamətləndirilib”.

## ”DÖVLƏT ÖZ ÜZƏRİNƏ DÜŞƏN VƏZİFƏNİ İCRA EDİR”

Şəhid ailələri və qazilərə sosial dəstək davam etdirilir. Prezident İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə bu sahədə müxtəlif böyük maliyyə tutumlu proqramlar həyata keçirilir. Ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam edir. Müharibə əlillərinin avtomobillə təminatı proqramı çərçivəsində 7400 müharibə əlili avtomobillə təmin olunub. Göründüyü kimi, dövlətimiz tərəfindən bu qəbildən olan insanlar təkcə evlə təmin olunmur, eləcə də bu və ya digər sosial addımların atılması da onların təminatına yönəldilib. Vurğulamaq yerinə düşər ki, şəhid ailəsi üzvləri və müharibə iştirakçılarından ibarət 93 min nəfərə 103 min sosial ödəniş təyin olunub. Dövlət başçısının 2020-ci ilin dekabrında verdiyi tapşırığına əsasən müharibə əlilləri yüksək texnologiyalı protezlərlə təmin edilməkdədirlər. Ötən dövrdə 324 nəfər müharibə əlili yüksək texnologiyalı 338 ədəd müasir 4-cü nəsil protezlə təmin edilib. Onlardan 124 nəfəri I Qarabağ müharibəsi əlilləri və Vətən müharibəsinə qədərki dövrdə hərbi səbəblərlə əlaqədar əliliyi olan şəxslərdir ki, 128 ədəd müasir protezlə təmin olunublar. ”Yəni, dövlət öz üzərinə düşən vəzifəni icra edir. O cümlədən şəhid ailələrini, müharibə əlillərini işlə təmin etmək üçün çoxsaylı tədbirlər həyata keçirilir. Əsas odur ki, yerlərdə də bu kateqoriyadan olan insanlara diqqət göstərilsin. Rayon icra orqanlarının nümayəndələri onlara biganə qalmasınlar, əksinə, daim onların yaşayışı ilə maraqlansınlar, onların məşğulluğu ilə maraqlansınlar” - deyə dövlət başçısı bildirib.

Bütün görülən bu və ya digər tədbirlərlə yanaşı, 1400 müharibə əlili 17 min reabilitasiya vasitəsi, 5 min ailə sosial-psixoloji, 1500 şəxs reabilitasiya xidmətləri ilə təmin edilib, 11 min şəxs aktiv məşğulluq proqramlarına cəlb olunub, vahid əlaqələndirmə mərkəzləri tərəfindən isə 30 min şəxsə xidmətlər göstərilib. Postmüharibə dövründə 450-dən çox şəhid ailəsi və müharibə əlilinə sanatoriya-kurort və müalicə mərkəzlərinə göndəriş verilib, 41 nəfər müharibə əlili peşə reabilitasiyasına cəlb olunub, 60 qazi üçün motivasiya düşərgələri təşkil olunub.

## ”ÖLDÜ VAR, DÖNDÜ YOXDUR” DEYƏRƏK TORPAQLARIMIZI AZAD ETDİK”

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qazandığımız Qələbədə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, bu yolda canını fəda edən vətənpərvər oğullara, şəhid ailələrinə dövlətimiz tərəfindən onların sosial qayğılarının həll edilməsi üçün ardıcıl tədbirlər görülür. Onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş imtiyaz və müavinətlərin icrası təmin olunur, bu istiqamətdə yeni sosial dəstək proqramları həyata keçirilir. Cənab Prezident ”Biz bu Qələbəni onlara - şəhidlərimizə, müharibə əlillərinə, müharibə iştirakçılarına borcluyuq. Əlbəttə, dövlət qətiyyət göstərdi, biz öz iradəmizi ortaya qoyduq, heç nəyə baxmadan, heç kimdən çəkinmədən, ”öldü var, döndü yoxdur” deyərək torpaqlarımızı azad etdik. Bu, dövlət siyasətidir və dövlətin gücüdür, vətəndaşlarımızın həmrəyliyidir. Amma onu da heç kəs unutmamalıdır ki, azad edilmiş torpaqlarımıza bayrağımızı sancan bizim qəhrəman əsgər və zabitlərimiz olub. Onlar öz canlarını fəda edib, onlar sağlamlığını itirib, onlar heç nəyə baxmadan, qorxmadan ölümə gedərək Vətənimizi işğalçılardan xilas ediblər. Ona görə hər bir dövlət məmurunun, nəinki dövlət məmurunun, hər bir insanın borcudur ki, onlara arxa, dayaq olsun. Yenə də deyirəm, dövlət və mən Prezident kimi daim onların problemləri ilə maraqlanıram, bu problemləri həll edirəm, daim onlarla bir yerdəyəm. Hər bir dövlət məmuru da, bax, eyni hərəkətlər etməlidir.”

***Nəzakət ƏLƏDDİNQIZI***

# İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib

**Dünən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Qərargahın növbəti iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, iclası giriş sözü ilə açan Qərargahın rəhbəri Samir Nuriyev Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə keçirilən ilin altı ayının yekunlarına həsr olunan müşavirədə dövlətimizin başçısının çıxışından irəli gələn vəzifə və tapşırıqları vurğulayıb. Qərargahın fəaliyyətinin planlılıq, operativlik, şəffaflıq kimi prinsiplərə əsaslanaraq daha da təkmilləşdirilməsinin önəmini bildirib.

Sonra 2022-ci il iyulun 5-də Nazirlər Kabineti və Əlaqələndirmə Qərargahı üzvlərinin Suqovuşan və Ağdam istiqamətinə səfəri zamanı müəyyənləşdirilmiş məsələlərə dair müzakirələr aparılıb. Zəngilan rayonunun Ağalı kənd sakinlərinin qayıdışının birinci mərhələsi üzrə 41 ailənin köçürülməsinə toxunan Qərargah rəhbəri Böyük Qayıdış prosesinin başlaması ilə əlaqədar qarşıda duran yeni vəzifələri qeyd edib.

İclasda Əlaqələndirmə Qərargahının cari fəaliyyəti ilə bağlı məsələlər, o cümlədən yaşayış məntəqələrinin şəhərsalma sənədlərinin hazırlanması, mühəndis-kommunikasiya və sosial infrastrukturla təmin edilməsi, habelə əhalinin qayıdışının təşkili və dayanıqlı məskunlaşması üzrə məsələlər müzakirə olunub. Sonda qarşıya qoyulmuş vəzifələrin icrası ilə bağlı zəruri tədbirlər müəyyən edilib və müvafiq tapşırıqlar verilib.

## Milli Məclisdə “Siyasi partiyalar haqqında” yeni qanun layihəsi hazırlanır

Azərbaycan Respublikası Milli Məclisində təmsil olunan bütün siyasi partiyaların nümayəndələri ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsinin hazırlanması ilə bağlı parlamentin sədrinə müraciət ediblər. Müraciətdə ölkəmizin müasir inkişaf reallıqlarına cavab verən yeni qanunun hazırlanmasının zəruriliyi vurğulanır.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Milli Məclisin sədri Sahibə Qafarova artıq yeni qanun layihəsinin hazırlanması haqqında müvafiq tapşırıqlar verib və sənədin hazırlanması üzrə işə başlanılıb. Bu qanunun ictimai əhəmiyyətini nəzərə alaraq, Azərbaycanda dövlət qeydiyyatına alınmış siyasi partiyaların yeni qanun layihəsi ilə bağlı təkliflərini Azərbaycan Respublikası Milli Məclisinə təqdim etmələri xahiş olunur.

# Ermənistan cəmiyyətində YANLIŞLIQLAR

**Erməni cəmiyyətində müşahidə olunanlar heç də normal görünmür və Ermənistan ictimaiyyətinin yanlışlıqlar içərisində, özü də müəmmalı vəziyyətdə olduğu birmənalı şəkildə özünü büruzə verir. Ola bilsin ki, bu cəmiyyət tarixi faktları xatırlamır, cəmi bir neçə il bundan əvvəlki hakimiyyətlərin oyunlarını yaddan çıxarıb, amma reallıq bundan ibarətdir ki, erməni əsilli avantüristlər hakimiyyət naminə daim öz cəmiyyətini aldadıb və yanlışlıqlar içərisində qoyub.**



Respublikaçılara xatırlatmaq terinə düşərdi ki, onların lideri Serj Sarkisyanın hakimiyyətdə olduğu dövrdə rəsmi İrəvan nəhayət Qərbdən üz döndərmişdi və özünü həvəslə Rusiyanın qucağına atmışdı. Maraqlıdır, indi Sarkisyan və onun tərəfdarları hansı üzlə Qərbdən yardım umur və onlar demokratiya pərdəsi altında etmək istədikləri üçün nəyə bel bağlaya bilər? Sözsüz ki, Qərb artıq Serj Sarkisyana, eləcə də onun tərəfdarlarına yaxşıca bələddir və bundan sonra hansısa dəstək veriləcəyi inandırıcı deyil. Bu halda atılan addımlar, edilən cəhdlər, verilən vədlər blefdən başqa nə ola bilər?





Cəmi 44 gün davam edən və Ermənistanın rüsvayçı məğlubiyyətindən, kapitulyasiya sənədini imzalamasından, torpaqlarımızın işğaldan azad edilməsindən sonra danışıqlar zamanı artıq bir dəfə də olsun Dağlıq Qarabağ məsələsi ifadəsi işlədilmir, hansıki Sarkisyan da, Koçaryan da yenə əvvəlki kimi bu məsələni ortaya atıb öz xalqını aldatmağa çalışır. Bu bir reallıqdır ki, artıq rəsmi Brüssel "Dağlıq Qarabağ" ifadəsindən bir növ tamamilə imtina edib. Avropa İttifaqının rəsmi mövqeyi göz önündədir və belə olan halda, ermənilərə vədlər verilməsi, Azərbaycana məxsus olan torpaqların yenidən ələ keçirilməsi barədə vəd olunması sadəcə, kütlənin aldadılmasıdır.





Az qala əsrin üçdə birinə yaxın müddət ərzində ermənilər tərəfindən işğal altında saxlanılan, orada istehkamlar belə qurulan torpaqları, Azərbaycan torpaqlarını Ali Baş Komndanın, cənab İlham Əliyevin uzaqgörənliyi, siyasi iradəsi və rəhbərliyi ilə, xalqımızın birliyi, həmrəyliyi ilə Azərbaycan Ordusu cəmi 44 gün ərzində işğaldan azad etdisə, indi erməni cəmiyyətinə verilən vədlərin, danılan nağılların mənası nədir? Cəmi 44 gün ərzində diz çökən Ermənistanın silahlı qüvvələri barədə yaradılan mif darmadağın edilibsə, hərbi qüvvəsi yox dərəcəsindədirsə, artıq nədən söhbət gedə bilər və niyə ermənilərin beyni yenə doldurulur? Əlbəttə ki, məqsəd erməni cəmiyyətini yanlış istiqamətə yönəltmək, bir sözlə, aldatmaqdır və bu da yalnız onların hakimiyyəti ələ keçirmək üçün maraqlarına xidmət edə bilər.

Bir-birinin ardınca hərbi əsirlər barədə söz-söhbət yaratmağa çalışanların da yanlış yolu tutduları üzə çıxdı və bu məsələnin də mənasız olaraq ortaya atıldığı öz təsdiqini tapdı. Bəlli oldu ki, hərbi əsir yoxdur və müharibə bitdikdən sonra aranı qarışdırmaq istəyənlər hərbi əsir adlandırıla belə bilməz və onlar barəsində iddialar əsassızdır. Azərbaycanın bu mənada da haqlı olduğu ortaya çıxdı və erməni cəmiyyəti bunun da şahidi oldu. Şahidi oldu ki, 30 ilə yaxın işğal altında saxlanılan torpaqlarını Azərbaycan geri qaytarmaqda haqlı olduğu kimi, bu məsələdə də haqlıdır və bunları bütün dünya ictimaiyyəti də qəbul edir. O zaman erməni cəmiyyəti növbəti dəfə aldadıldığını, yanlışlıqlar içərisində olduğunu dərk etməli idi və çox güman ki, dər etmiş oldu da.

İndi Ermənistanın baş naziri Nikol Paşinyan məhz erməni cəmiyyətində ittiham oluna bilər, Koçaryanın və Sarkisyanın tərəfdarları onu ittiham edə bilərlər, amma ermənilər yaxşı başa düşürlər ki, hər zaman aldadılıblar, yanlışlıq içərisində olublar və bunu da onlara yaşadanlar indi vədlər verənlərdir. Deməli, yenə də erməni cəmiyyəti yanlışlıqlara sürükənir. Nikol Paşinyana qədər artıq Ermənistan üçün çox ciddi problemlər toplanılmışdı və bu ölkə bütövlükdə yanlışlıq içərisində idi. Ola bilsin ki, nəyə isə ümid edirdilər, amma artıq ümid etməyə belə yer qalmayıb və bunun da, yəni ümid etməyin belə yanlışlıq olduğu günün reallığıdır. Reallıq ondan ibarətdir ki, Ermənistanın haqsız olduğu, işğalçılıq siyasəti yürütdüyünü bütün dünya ictimaiyyəti, eləcə də beynəlxalq təşkilatlar qəbul etdilər, əks halda Azərbaycanın apardığı ədalətli savaşa mane olmağa cəhd olnardı. Bütün bunların şahidi olan ermənilər indi yenə də yanlış addımlara rəvac versələr, artıq bu onların fəlakəti ilə nəticələnəcək və bundan sonra daha dəhşətli sonluq ilə üzləşməli olacaqlar, çünki yanlışlığın da bir həddi, bir qədəri var.

Ən təəccüblü və gülünc məqam isə ondan ibarətdir ki, Azərbaycanın uğurları erməni cəmiyyətində tamamilə tərsinə şərh edilir. Məsələn, Avropa Komissiyasının Prezidenti Ursula fonder Lyayenin Azərbaycana gəlişi, Avropa İttifaqı ilə ölkəmiz arasında bağlanılan saziş, enerji təhlükəsizliyi baxımından ölkəmizə olan etimad erməni cəmiyyətində tamamilə tərsinə yozulur, özü də həddsiz həyasızlıqla. Azərbaycanın məhz təbii ehtiyatlar baxımından zənginliyi, Avropanın enerji təhlükəsizliyində rolu, potensialı danılmazdır, amma bunu həyasızlıqla dananlar yenə də erməni cəmiyyətini yanlış istiqamətə aparmaq niyyəti güdürlər. Ursula fon der Lyayenin Azərbaycana gəlişinə, bağlanılan sazişə, ölkəmizin uğurlarına hansı əsasla, hansı mətiqlə, hansı üzlə kölgə salmaq olar ki, buna cəhd edilir və nəyə ümid edilir? Ola bilsin, ümid edilir ki, ermənilər bu yalanlara inanacaqlar və yenə də yanlış yolda olacaqlar.

Məsələ burasındadır ki, artıq aldanmağa, yanlış yollara düşməyə erməni cəmiyyətinin haqqı yoxdur. Bu toplum tarix boyu dəfələrlə aldadılıb və yanlışlıqlar etməyə sürüklənib və öz avantüristləri, öz içlərindən çıxan manipulyatorpar tərəfindən dəfələrlə aldadıqları barədə ermənilər kifayət qədər məlumatlıdırlar. Ən azından ermənilər indi hansı durumda olduqlarının fərqində olmalıdırlar. Onun da fərqində olmalıdırlar ki, onları bu duruma məhz aldadaraq, yanlış yola sürükləyərək salıblar. Bilməlidirlər ki, Azərbaycanın iqtisadi inkişafı, hətta yüksəlişi, mövcud potensialı ilə Ermənistan müqaisə belə oluna bilməz. Dərk etməlidirlər ki, çox çətin, özü də səfil vəziyyətində olan, daxilini xaos bürüyən bir ölkəni, durmadan inkişafda olan ölkə ilə qarşı-qarşıya qoymaq məhvinə, süqutuna hökm verməkdir. Əgər bunu dərk etmirlərsə, deməli hələ də Ermənistan cəmiyyətində yanlışlıqlar hökm sürür və yenə də bunun acı nəticəsi ilə qarşılaşmalı olacaqlar.

***İnam Hacıyev***

# Bahalı neft erası bitməyəcək, əksinə...

**Son həftələrdə neft qiymətlərində bir qədər ucuzlaşma hiss edilir. Amma buna sevinmək hələ tezdir. Bu xammalın yüksək qiymətləri dövrü daha bir neçə ay, hətta illərlə davam edə bilər. Bunun niyə belə olduğunu "Bloomberg" də izah edir.**









Qiymətlər son üç ayın ən aşağı səviyyəsinə düşsə də, dünya hələ də ehtiyac duyduğu neft məhsullarını əldə etmək üçün mübarizə aparır. Və bu amilin qlobal iqtisadiyyata və siyasətə təsiri son dərəcə güclü olacağı da proqnozlar sırasındadır.

İyulun 6-da Brent markalı neftin aprel ayından bəri ilk dəfə bir barel üçün 100 dollardan aşağı düşməsi bütün dünyada siyasətçilərə, biznes sahiblərinə və avtomobil sürücülərinə yanacağın yüksək qiymət günlərinin sona çatacağına ümidi verirdi. Əslində, tələb və təklifin dəyişmə dinamikası bir neçə ay, hətta illərlə davam edə bilən yüksək qiymətlərin uzun müddət davam etdiyini göstərir. Baxmayaraq ki, dünya koronavirus pandemiyasından yeni-yeni qurtulur, yanacağa tələbat artmaqda davam edir. Hazırda xam nefti yanacağa çevirmək üçün lazım olan emal gücü çatışmır. Dünyanın ən böyük istehsalçıları isə artıq mümkün qədər çox istehsal edirlər. Və bütün bunlar Ukrayna münaqişəsi fonunda baş verir ki, bu da Rusiyadan neftin tam ixracına mane olur.

Beynəlxalq Enerji Agentliyinin (IEA) icraçı direktoru Fatih Birol iyulun 12-də keçirilən forumda çıxışı zamanı deyib: "Dünya miqyası və mürəkkəbliyi baxımından heç vaxt belə ağır enerji böhranı ilə üzləşməyib. Böhran hələ də bütün dünyaya təsir edir".

Enerji qiymətlərinin qlobal iqtisadiyyata və siyasətə təsiri çox böyükdür. Bu il benzinin qiymətinin 42% artması artıq Birləşmiş Ştatlarda inflyasiyanın son onilliklərin ən yüksək səviyyəsinə çatmasına səbəb olub və Respublikaçılar Partiyasının builki Konqres seçkiləri üçün kursunu təyin etməyə kömək edib. Yanacağın yüksək qiymətləri Perudan Şri-Lankaya kimi ölkələrdə iğtişaşlara səbəb olub. Dünya liderlərinin illərdir danışdıqları enerji keçidi çox güman ki, arxa plana keçməlidir.

Ən sadə səviyyədə, dünya indi ehtiyac duyduğu qədər neft hasil etmək üçün mübarizə aparır. Bu, pandemiya səbəbindən tələbin son onilliklərin ən aşağı səviyyəsinə düşdüyü və neft qiymətlərinin ümumiyyətlə, mənfiyə çevrildiyi 2020-ci ilin yazından çox kəskin dəyişiklikdir. BEA-nın məlumatına görə, gələn il dünyada bu yanacağın istehlakı 2%-dən çox artaraq pandemiyadan əvvəlki səviyyəni keçəcək.

Təchizatları saxlamaq çətin olacaq. İyun ayında JPMorgan Chase & Co ekspertləri Putinin milyonlarla barel nefti saxlamağa qərar verəcəyi bir apokaliptik ssenarini açıqladı və bu, neftin qiymətinin bir barel üçün 380 dollara yüksəlməsinə səbəb ola bilər. Moskva Çin və Hindistanda aktiv alıcılar tapsa da, sanksiyalar və Rusiya ilə iş görmək istəməməsi ölkənin ümumi hasilatını gündə bir milyon bareldən çox azaldıb.

Amerika Birləşmiş Ştatlarında istehsal həcminin arta biləcəyi perspektivləri qeyri-müəyyən olaraq qalır. Dünya neftinin təxminən 40%-ni istehsal edən OPEC plana əməl etməkdə çətinlik çəkir. Köhnəlmiş infrastruktur, illərin zəif investisiyaları və siyasi qeyri-sabitlik istehsalı dayandırır. May ayında OPEC+ qrupuna daxil olan ölkələr (Neft İxrac Edən Ölkələr Təşkilatı və onun müttəfiqləri) kollektiv hədəflərindən gündəlik 2,7 milyon barel az hasil ediblər.

Hasilatın artması ümidləri bu təşkilatın ehtiyat istehsal potensialına malik yalnız iki üzvü - Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri ilə bağlıdır. Prezident Bayden bu iki ölkəni daha çox neft hasil etməyə çağırıb. Enerji qiymətlərini nə qədər aşağı salmağa çalışdığının sübutu Baydenin iyul ayında Səudiyyə Ərəbistanına planlaşdırılan səfəri idi və burada o, Amerika liderinin əvvəllər telefon da daxil olmaqla danışmaqdan belə imtina etdiyi vəliəhd şahzadə Məhəmməd bin Salmanla görüşməli olacaq.

Bununla belə, Səudiyyə Ərəbistanı və ya BƏƏ-nin daha nə qədər xam neft verə biləcəyi bəlli deyil. Səudiyyənin dövlət neft nəhəngi Aramco gündə 12 milyon barel neft hasil edə biləcəyini iddia edir. Lakin o, bütün mövcudluğu tarixində yalnız bir dəfə belə səviyyəyə çatıb. BƏƏ-yə gəlincə, G7 toplantısında Fransa prezidenti Emmanuel Makron qeyd edib ki, Əmirlik liderinin ona dediyi kimi, ölkədə artıq mümkün olan maksimum həcmdə neft hasil edilir.

Hazırda ABŞ-ın şist sənayesinin dünyanı xilas etməyə hazır olduğuna dair heç bir əlamət yoxdur. Texas və Nyu-Meksiko ştatlarının nəhəng Perm hövzəsində istehsal həqiqətən də artmaqdadır. Lakin ABŞ-ın neft sənayesinin qalan hissəsi durğundur. ABŞ-da ümumi hasilat pandemiyadan əvvəlki zirvələrdən gündə təxminən bir milyon barel geriləməkdə davam edir.

Söhbət təkcə istehsalçıların daha çox neft hasil edə bilməməsindən getmir. Bəzi insanlar sadəcə bunu etmək istəmirlər. Dünyanın ən böyük beş neft şirkəti bu il 81,7 milyard dollar sərmayə qoymağı planlaşdırır ki, bu da 2013-cü ildə xərclədikləri məbləğin yalnız yarısıdır. ABŞ-ın şist istehsalçıları heç bir mənalı nəticə əldə etmədən pul yandırdıqdan sonra xərcləri cilovlamağa çalışırlar. Avropanın böyük neft şirkətləri kapitalı mədən ehtiyatlarının hasilatından yayındırır və onu aşağı karbonlu enerjiyə yönəldirlər.

Neft emalı kimi lazımlı sahəni də unutmaq olmaz. Pandemiya bir neçə qocalmış, gəlirsiz neft emalı zavodunu həmişəlik bağlanmağa məcbur etdi. Nəticədə, dünyada emal gücü çatışmazlığı yaranıb ki, bu da əvvəllər yanacaqdoldurma məntəqəsində yanacağın qiymətini demək olar ki, təkbaşına diktə edən xam neftin qiymətini artıq istehlakçıların nə qədər xərcləməli olacağına dair dəqiq göstərici deyil. İyun ayında xam neftin qiyməti 13% ucuzlaşıb. Benzinin qiyməti isə cəmi 6,5% ucuzlaşıb.

Bir çox təchizat problemlərinin fonunda tələbin artması dayanır. Koronavirusa qarşı iki illik mübarizədən sonra yüz milyonlarla insan yenidən bu və ya digər nəqliyyat vasitələrindən istifadə edib. Yayın yalnız yarısı keçib və tələbat artıq pandemiyadan əvvəlki səviyyəyə yaxındır. Bu arada, Çinin hələ də koronavirus məhdudiyyətlərindən tam çıxmadığını nəzərə almalıyıq.

Təbii ki, mərkəzi banklar faiz dərəcələrini artırır və qlobal tənəzzül perspektivi, o cümlədən tələbin aşağı düşməsi ehtimalı investorları qorxur. Lakin iqtisadi tənəzzül nadir hallarda yanacağa tələbin azalması ilə nəticələnir. Pandemiyanın yaratdığı tənəzzüldən başqa, qlobal maliyyə böhranı müasir tarixdə tələbin ciddi şəkildə azalmasının yeganə nümunəsi olub. Bir qayda olaraq, böhran dövründə istehlak sadəcə olaraq bir qədər yavaş artıb.

Bəziləri deyə bilər ki, neftin yüksək qiymətləri dünyanın, nəhayət, qalıq yanacaqlardan asılılıqdan qurtulması üçün lazımdır. Lakin reallıqda bazardakı vəziyyət yalnız keçid prosesini çətinləşdirir. "Bloomberg News"-un məlumatına görə, 20-dən çox ölkə yanacaqdoldurma məntəqələrinin qiymətlərini aşağı saxlamaq üçün subsidiya proqramları hazırlayıb. Bahalı neft inflyasiyanı və artan faiz dərəcələrini gücləndirdiyindən, bərpa olunan enerji şirkətləri artan kapital xərcləri ilə üzləşirlər.

Hazırda dünyada mövcud olan 20 milyon elektrik avtomobili neftə olan tələbatı azaltmaq üçün kifayət etmir. Hər il elektrikli nəqliyyat vasitələri üçün uzunmüddətli proqnoz açıqlayan Bloomberg bu xammala olan tələbin 2027-ci ildə zirvəyə çatacağını bildirir. Lakin bütün ekspertlər neftin qiymətinin artacağına əmin deyillər. "Citigroup Corporation" bu yaxınlarda tənəzzül zamanı neftin qiymətinin bir barel üçün 65 dollara qədər düşə biləcəyi ilə bağlı proqnoz dərc edib. Şirkətin ekspertləri qeyd ediblər ki, xammala tələbat yalnız "ən ağır dünya böhranı" zamanı azala bilər. Ancaq neftin qiyməti istənilən tənəzzüldə aşağı düşür.

İyulun 8-də Rusiya prezidenti Putin neft qiymətləri ilə bağlı deyilənlərin əksini xəbərdar etdi. Onun sözlərinə görə, Qərb ölkələri Rusiyanın enerji təchizatına qarşı sanksiyalar tətbiq etməklə səhvə yol verib. Məhdudiyyətlər davam edərsə, Rusiya lideri xəbərdarlıq edib ki, qlobal enerji bazarı "daha ciddi, hətta fəlakətli nəticələrlə" üzləşə bilər.

***V.VƏLİYEV***

ANALİTİK



# Sağlam gəncliyi və sağlam gələcəyi olan dövlət!

## İlham Əliyev "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib"

Azərbaycanda dövlət gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyevin bu istiqamətdə qəbul etdiyi qərarlar, təsdiq etdiyi dövlət proqramları uğurla icra olunur və öz müsbət nəticələrini verir. Bugünki gənclik azad fikirli və düşüncəli, cəsarətli, bilikli, vətənpərvər gənclikdir. Müstəqil dövlətin nümayəndəsi kimi dünyaya çıxan və müxtəlif səpkili tədbirlərin iştirakçısı olaraq qalibiyyət əldə edən, kreativ gənclikdir. Cəmiyyətin aparıcı qüvvəsinə çevrilən gənclər daim axtarışda olan, yeniliyi sevən böyük bir ordudur. Azərbaycanda gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir və bu siyasət də sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan gənclərinə diqqət və qayğı artdı. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkə gənclərinin sağlam ruhda tərbiyəsi, əsl vətəndaş kimi formalaşması istiqamətində məqsədyönlü islahatlar həyata keçirildi. Ümummilli Lider Heydər Əliyevin 1994-cü ilin iyulun 26-da imzaladığı Fərmanla Gənclər və İdman Nazirliyinin yaradılması dövlət gənclər və idman siyasətinin əsas istiqamətlərini müəyyənləşdirmiş oldu. Gənclərin qüvvə və bacarıqlarının, yaradıcılıq imkanlarının milli dövlət quruculuğu vəzifələrinin yerinə yetirilməsinə, ölkədə həyata keçirilən islahatlar proqramlarının gerçəkləşdirilməsinə səfərbər olunması əsas məsələlərdən birinə çevrildi. Fərmandan irəli gələrək gənclər arasında Azərbaycanın tarixi və mədəni irsini yaymaqla, onların vətənpərvərlik, Vətənə sədaqət, müstəqilliyimizin, dövlətçiliyimizin, torpaqlarımızın müdafiəsinə daimi hazırlıq ruhunda tərbiyə edilməsi istiqamətində ciddi addımlar atıldı. Müstəqillik dövründə gənclərin ictimai-siyasi fəallığı vətəndaş cəmiyyətinin qurulması üçün zəruri şərtlərdən biri kimi yeni demokratik münasibətlərin formalaşmasına təkan verib. Dövlətimiz tərəfindən silsilə olaraq həyata keçirilən tədbirlər gənclərin inkişafına stimul verdi. 1996-cı ildə müstəqil Azərbaycan gənclərinin ilk ümumrespublika forumunun keçirilməsi, 1997-ci ildə 2 Fevralın Azərbaycan Gəncləri günü elan edilməsi, çoxsaylı dövlət proqramlarının qəbulu, 1999-cu ildə "Dövlət gənclər siyasəti haqqında" Fərmanın imzalanması və geniş fəaliyyət proqramının təsdiq edilməsi, 2002-ci ildə "Gənclər siyasəti haqqında" Qanunun qəbulu Ulu Öndər Heydər Əliyevin gənclərə böyük qayğının və etmadın nümunəsidir.

### GƏLƏCƏYİMİZİ ETİBAR EDƏCƏYİMİZ VƏTƏNPƏRVƏR GƏNCLƏR ORDUSU

Hər bir dövlətin əsas missiyası gələcəyini etibar edəcəyi nəsil formalaşdırmaqdır. Bu baxımdan Ulu Öndərin uzaqgörənliklə formalaşdırdığı gənclər siyasəti yeni bir mərhələyə qədəm qoymuşdur. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyevin uğurla davam etdirməsi nəticəsi dövlət gənclər siyasətinin prioritet sahələrində müsbət dəyişikliklər baş verib və ciddi nailiyyətlər əldə edilib. Prezident İlham Əliyev gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi məqsədilə 2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi Dövlət Proqramı"nı (2005-2009-cu illər) təsdiq etdi ki, bu da gənclərə dövlət qayğısının artırılmasını təmin etmiş oldu. Azərbaycan Prezidenti İlham Əliyevin gəncləri cəmiyyətin aparıcı qüvvəsinə çevirmək, onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə təsdiqlədiyi dövlət proqramları uğurla həyata keçirilir. Dövlət quruculuğunda gənclərin artan rolu, onların mənəvi inkişafı, vətənpərvərlik ruhunda tərbiyəsi, Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil alması, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli, gənclər təşkilatlarının formalaşdırılması və inkişafı üçün yaradılmış şərait bu diqqət və qayğının nəticəsidir. Prezident İlham Əliyevin 2007-ci ili "Gənclər ili" elan etməsi də gənclərin ölkə həyatında fəallığını xeyli artırmışdır. Gənclərin xaricdə təhsil almasına dəstək verən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət proqramı" gənclərə böyük imkanlar yaratmış oldu.

### SABAHA VƏ UĞURLARA HESABLANAN GƏNCLƏR SİYASƏT

Gənclər siyasətindən söz açarkən, idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılmasını qeyd etməliyik. "Sağlam bədəndə sağlam ruh olar" prinsipinə söykənərək demək olar ki, Azərbaycan həm də sağlam gəncliyi və sağlam gələcəyi olan bir dövlətdir. Ölkəmizdə idmana qayğı bu sahənin inkişafına böyük töhfələr verir. Qeyd edək ki, müstəqilliyimizin ilk illərində Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə əsaslanan sağlam həyat tərzinin əhali arasında aşılanmasının təmin edilməsi, bədən tərbiyəsinin geniş təbliğinin təşkil edilməsi də diqqətdə duran məsələlər sırasında idi. Ulu Öndər Heydər Əliyevin hələ ölkəmizə sovet dövründə rəhbərliyi dövründə bütün sahələrdə olduğu kimi, idmanın da inkişafına böyük diqqətlə yanaşılmış, gələcək inkişaf perspektivləri ciddi nəzərə alınmışdı. O illərdə idmanın maddi-texniki bazasının yaradılması üçün çox iş görülmüşdü. Bir çox idman kompleksləri, qurğuları, meydançalar salınmış, böyük idman-sağlamlıq mərkəzləri yaradılmışdı. Ümumilikdə, ötən əsrin 70-ci illərində Bakıda 250 idman meydançası və şəhərciyi salınmışdı. 1973-cü ildə Bakıda möhtəşəm idman sarayının təməli qoyularaq inşa edildi. 1974-cü ildə ölkənin 36 rayonunda 59 uşaq-gənclər idman məktəbi fəaliyyət göstərirdi. Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində özünü bütün sahələrdə qabarıq göstərən ideoloji-siyasi, iqtisadi böhran səbəbindən idman siyasəti tamamilə diqqətdən kənarda qalmışdı. Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı bütün sahələrdə olduğu kimi, idman sahəsində də böyük dönüş yaratmış oldu. İdmanın və bədən tərbiyəsinin inkişafı dövlət siyasətinin prioritet qollarından birinə çevrildi, bu sahədə yüksəlişin əsası qoyuldu. Yuxarıda qeyd etdiyimiz kimi, dövlətin gənclər və idman siyasətinin həyata keçirilməsi üçün Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Ulu Öndərin idman sahəsində həyata keçirdiyi siyasət 1997-ci ildən mühüm mərhələyə qədəm qoydu.

Dünyanın ən mötəbər idman tədbirlərindən olan Olimpiya Oyunlarında Azərbaycan idmançıların möhtəşəm qələbələr qazanması xüsusi qeyd edilməlidir. Olimpiya Oyunlarında Azərbaycan komandasının əldə etdiyi nəticələrə nəzər salsaq, çox böyük uğurların əldə edildiyinin şahidi olarıq. "Atlanta-1996"da 1, "Sidney-2000"də 3, "Afina-2004"də 5, "Pekin-2008"də 7, "London-2012"də 10 medal qazanan Azərbaycan komandası "Rio-2016" Yay Olimpiya Oyunlarında tarixi qələbəyə imza ataraq, 18 medal əldə etdi. İdmançılarımızın olimpiadalarda, beynəlxalq səviyyəli mötəbər yarışlarda qazandıqları uğurlar sayəsində Azərbaycan dünyada idman ölkəsi kimi tanınıb. Son illərin idman nailiyyətlərinə nəzər yetirdikdə bir daha şahidi oluruq ki, Azərbaycan bütün beynəlxalq yarışlarda ən yüksək pillələrdə özünü təsdiq edib. Başqa sözlə, idmanın inkişaf etdirilməsi istiqamətində görülən genişmiqyaslı işlər nəticəsində Azərbaycan Avropanın idman mərkəzlərindən birinə çevrilib. Azərbaycan idmançılarının mötəbər beynəlxalq yarışlarda, olimpiadalarda çıxışları da getdikcə daha uğurlu olur. Birinci Avropa Oyunlarında Azərbaycan idmançıları 21 qızıl, 15 gümüş və 20 bürünc medal qazanmağa müvəffəq oldular. IV İslam Həmrəyliyi Oyunlarında isə idmançılarımız 75 qızıl, 50 gümüş, 37 bürünc medal qazanaraq komanda hesabında birinci oldular. İdman sahəsində gerçəkləşdirilən dövlət siyasətinin nəticəsi olaraq, idmançılarımızın sorağı mötəbər yarışlardan qalib kimi eşidilir. Minskdə keçirilən İkinci Avropa Oyunlarında Azərbaycan millisinin 10-cu yerdə qərarlaşması idmanımızın növbəti uğuru oldu. 82 idmançı ilə təmsil olunan Azərbaycan millisi 28 medal qazanaraq, komanda hesabında 50 ölkə arasında 10-cu yerdə qərarlaşdı. Komandamız Oyunları 5 qızıl, 10 gümüş, 13 bürünc medalla başa vurdu. Dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin Prezidenti Cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində bu gün güləş də özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Ölkə müstəqillik əldə etdikdən sonra bütün olimpiya oyunlarında bu idman növü üzrə medallar qazanılıb. Bu, bir daha sübut edir ki, milli idman növü güləş Azərbaycan idmanının aparıcı sahəsidir. Bolqarıstanda keçirilmiş Avropa çempionatında gənc güləşçilərimizin ölkəmizi ləyaqətlə təmsil edərək böyük uğura imza atdılar. Belə ki, bu yarışda idmançılarımız 16 medal qazanıb ki, onlardan 7-si qızıl medaldır. Bu da Azərbaycan güləşi tarixində rekord nəticədir. Bütün bunlar Azərbaycanda idmana dövlət qayğısının müsbət nəticələrini və idmanın inkişaf səviyyəsini əyani göstərir.

İdmançılara dövlət qayğısı ilə yanaşı, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlərə start verildi. 2000-ci ildən etibarən, Azərbaycanın müxtəlif bölgələrində müasir tipli olimpiya idman kompleksləri tikilib istifadəyə verilməyə başladı. Son 19 ildə Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. Bakı Olimpiya Stadionu, Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, "Baku Crystall Hall", Bakı Tennis Akademiyası, Heydər Əliyev adına İdman Arenası, "Bakcell Arena", Bakı Atıcılıq Mərkəzi, Bakı Ekspo Mərkəzi və digər idman kompleksləri müxtəlif növ yarışların keçirilməsinə imkan verir. İndi, nəinki paytaxt Bakıda, demək olar ki, ölkəmizin bütün bölgələrində müasir Olimpiya idman kompleksləri fəaliyyət göstərir. Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda - paytaxt Bakıda irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunub. Yeniyetmə cüdoçuların Avropa çempionatı, bədii gimnastika üzrə 27-ci dünya çempionatı, sərbəst güləş və yunan-Roma güləşi üzrə 24-cü dünya çempionatı, görmə qüsurlu paralimpiyaçı cüdoçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə 25-ci Avropa çempionatı, qılıncoynatma üzrə gənclər və kadetlər arasında dünya çempionatı, gənclər arasında boks üzrə dünya çempionatı və s. keçirilib. Bu yarışların Azərbaycanda keçirilməsi, inkişaf etmiş bir dövlət olaraq, hər bir sahədə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırıb. İlk Avropa Oyunlarının da Bakıda keçirilməsi böyük nailiyyət oldu. Bütün bunlarda Azərbaycan gəncliyi öz sözünü deyir.

### "ƏSAS YÜKÜ, ƏSAS VƏZİFƏNİ GƏNC NƏSİL YERİNƏ YETİRDİ"

Qürurverici haldır ki, Azərbaycan gəncləri yüksək vətənpərvərlik ruhunda formalaşıb. Bu gün yüksək milli ruhlu gənclərimiz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etdi. 30 illik həsrətə son qoyuldu. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən gənclərin şücaəti, mücadiləsi milyonlarla insanlarda qələbə sevincini yaşatdı. Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən bu tarixi gündə gənclərimiz nəyə qadir olduqlarını göstərə bildilər. Bu gün müstəqil Azərbaycan dövlətinin gəncləri vətənpərvər, cəmiyyətin aparıcı qüvvəsinə çevrilən gənclərdir. Gənclərin Vətən müharibəsi başlayanda könüllü olaraq orduya yazılması, vətən torpaqlarının müdafiəsinə qalxması vahid niyyət ətrafında birləşən gənclərimizin əzmkarlığını, vətənə sevgisini bir daha göstərmiş oldu. "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib", - deyən Azərbaycan Prezident İlham Əliyev bildirib ki, torpaqlarımızın azad edilməsində bütün nəsillərdən olan vətəndaşlarımızın böyük zəhməti var, payı var: "Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi". Azadlıq eşqimiz olan üçrəngli bayrağımız bu gün göylərə yüksəlib. Öz canları, qanları bahasına vətənimizin müdafiəsinə qalxan igid oğullarımız şəhidlik zirvəsinə ucaldılar. Bir sözlə, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi dövlət gənclər siyasəti nəticəsində gənclərimiz böyük uğurlara imza atırlar.

***Zümrüd BAYRAMOVA***

# Şuşada keçirilən Beynəlxalq Media Forumu jurnalistlərin gözü ilə



**22 iyul tarixində Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə Şuşa şəhərində keçirilən ”Mediada qlobal trendlər, yeni çağırışlar” Beynəlxalq Media Forumu keçirilib. Beynəlxalq Media Forumun əsas məqsədi media sahəsində müxtəlif tendensiyaların qlobal və yerli konteksdə təhlili, aktual məsələlər ətrafında bilik və təcrübə mübadiləsinin təşviqi, həmçinin yerli və xarici media nümayəndələri və subyektləri arasında əməkdaşlığın genişləndirilməsidir. Forumda Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezidentin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, azərbaycanlı jurnalistlər və xarici qonaqlar iştirak edib. Bəs, media nümayəndələri Şuşada keçirilən forum barəsində nə düşünür?**

SİA forumda iştirak edən media nümayəndələrinin fikirlərini öyrənməyə çalışıb:

**Jurnalist Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli** bildirib ki, Şuşa şəhərində keçiri-



lən Beynəlxalq Media Forumu həm mediamız üçün, həm Şuşa və işğaldan azad olunmuş torpaqlarımız üçün, həm də ümumilikdə Azərbaycanımız üçün çox əhəmiyyətli bir tədbir idi. Forumda medianın qlobal problemləri müzakirə olundu. Bu problemlərin Azərbaycana necə təsir etməsi və bundan çıxış yolları məsələlərinə toxunuldu. Bu baxımdan Şuşada keçirilən Beynəlxalq Media Forumu çox faydalı oldu. Forumda 200-ə yaxın şəxs iştirak edirdi. Forumda həmçinin 30-a yaxın xarici qonaqlar da iştirak edirdi.

Şuşada keçirilən Beynəlxalq Media Forum həm mediamız üçün, həm də ölkəmiz üçün çox faydalı oldu. Bu baxımdan Medianın İnkişafı Agentliyinin təşkilatçılığına təşəkkürümü bildirirəm. MEDİA işini elə təşkil etmişdi ki, Forumda diqqətdən kənar bir nəfər belə qalmadı. Ümumilikdə forumu çox yüksək dəyərləndirir və hesab edirəm ki, Şuşada keçirilən Beynəlxalq Media Forumu hər birimiz üçün çox faydalı oldu”.

**”Xalq Cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəylinin** fikirlərinə görə, tarixdə ilk dəfə mədəniyyətimizin və qürurumuzun paytaxtı Şuşada keçirilən Milli Mətbuat Günü və təbii ki, Beynəlxalq Media Forumu əlamətdar hadisə kimi yaddaşlara həkk olunacaq və unudulmayacaq: ”Öncə qeyd edim ki, həm iyunun 21-də Bakıda keçirilən ”Dərinləşən media islahatları: Yeni hədəflərə doğru” adlı konfrans, həm də Şuşada baş tutan ”Mediada qlobal trendlər, yeni çağırışlar” mövzusunda Beynəlxalq Media Forumu bütün məqamlar nəzərə alınmaqla, yüksək peşəkarlıqla təşkil edilmişdi və bu səbəbdən təşkilatçılara vasitənizlə təşəkkürümü çatdırmağı özümə borc bilirəm.



Şuşada keçirilən Beynəlxalq Foruma gəldikdə isə, düşünürəm ki, sözügedən tədbiri Azərbaycanda media sahəsində həyata keçirilən islahatların növbəti, həm də daha dinamik mərhələsinin başlanıldığını elan edən mesaj kimi yanaşmaq daha doğru olardı. Bu məqam özünü Prezident İlham Əliyevin Milli Mətbuat Günü ilə bağlı media nümayəndələrinə ünvanladığı müraciətdə özünü daha qabarıq büruzə verir. Cənab Prezident müraciətində öncə son illər həyata keçirilmiş islahatların media fəaliyyətinin qanunvericilik bazasının təkmilləşdirilməsi, iqtisadi əsaslarının möhkəmləndirilməsi, jurnalistlərin sosial təminatının yaxşılaşdırılması, dövlətin kommunikasiya siyasətinin müasir dövrün tələblərinə uyğun həyata keçirilməsi, jurnalistika sahəsində çevikliyin, peşəkarlığın yüksəldilməsi, cəmiyyətimizi narahat edən mənfi təzahürlərin aradan qaldırılması, medianın beynəlxalq əlaqələrinin genişləndirilməsi və dost ölkələrlə birgə platformaların yaradılması məqsədi daşıdığını, bu sahədə nəzərəçarpacaq irəliləyiş əldə edildiyini vurğulayır, sonra isə qeyd edir ki, vətənpərvərlik, yüksək milli şüur, ali məqsədlər uğrunda cəmiyyətimizin səfərbər olunmasına layiqli töhfələr vermiş Azərbaycan jurnalistləri hər zaman prinsipiallıq nümayiş etdirməli, saxta və yalan məlumatlara söykənən kampaniyaların qlobal səviyyədə vüsət aldığı bir şəraitdə Azərbaycanın dövlətçilik maraqlarını uca tutmalı, vətəndaşlarımızın dolğun və düzgün məlumat əldə etmək hüquqlarını təmin etməli, cəmiyyətimizin tərəqqisi naminə var gücləri ilə çalışmalıdırlar”. Qarşıya qoyulan hədəf kifayət qədər aydındır və media sahəsindəki islahatların yeni, Şuşadan başlayan mərhələsində bu hədəflərə doğru forma ilə məzmunun vəhdət təşkil etdiyi bir yol xəritəsi ilə hərəkət ediləcəyinə zərrə qədər də şübhəm yoxdur.

Əslində, ”Şuşa” və ”Beynəlxalq Media Forumu” anlayışlarının özü belə media sahəsindəki islahatların mahiyyətini tam şəkildə ifadə edir. Azərbaycan mediası milli mətbuatımızın ənənələrinə, mədəniyyətimizə, dəyərlərimizə söykənərək inkişaf etməli və öz tarixi missiyasını beynəlxalq müstəvidə davam etdirməlidir. Bunun üçün isə yüksək peşəkarlıq, işgüzarlıq, yaradıcılıq potensialı, müasir çağırışlara çevik cavab verə biləcək iti ağıl, vətəndaşlıq məsuliyyəti tələb olunur.

Hesab edirəm ki, Milli Mətbuatımızın 150-ci ildönümündə və yenə də Şuşada artıq bu istiqamətlərdə əldə etdiyimiz nəticələrdən danışacağıq”.

**”Aznews.az” saytının baş redaktoru Taleh Şahsuvarlı** qeyd edib ki, 22 iyulda Şuşada tarixi bir gün yaşandı: ”Milli Mətbuatımızın yeni ildönümü əziz şəhərdə qeydə olundu. Media ilə bağlı böyük bir tədbir- Beynəlxalq Forum Xankəndinin başının üstündə keçirildi. İştirakçılar Şuşaya prezidentin təşəbbüsü və tapşırığı ilə təyyarə ilə aparıldılar. Tədbirə Prezidentin köməkçisi Hikmət Hacıyev, QHT-lərlə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova, PA-nın müvafiq sahə üzrə əməkdaşları, MEDİA-nın rəhbərliyi, Rəhman Hacıyevin timsalında digər qurumlardan nümayəndələr, Şuşanı əliyalın azad edən oğullar qatılmışdılar. Prezident İlham Əliyevin təbriki oxundu. O təbrikdə çox mesaj var. Bu mesajlara əsaslanaraq deyə bilərəm ki, dünənki tədbir media rəhbərlərinin Şuşanı görməsi üçün deyil, yeni hədəfləri Şuşadan görməsi üçün təşkil olunmuşdu. Mən dünən Şuşadan Qərbi Zəngəzuru gördüm. Bəli, Prezident yeni zəfər yürüşünə media ordusu ilə start verdi”.



**”Editor.az” saytının baş redaktoru Fərid Şahbazlının** sözlərinə görə, Şuşada keçirilən beynəlxalq Media Forumu Azərbaycan mətbuatının 147-ci il ildönümünün Şuşada qeyd olunması müstəqil Azərbaycanın tarixində çox mühüm hadisədir. Azərbaycan jurnalistləri ilk dəfə olaraq Şuşada peşə bayramlarını qeyd etdilər. Şuşada keçirilən beynəlxalq media forumuna xarici jurnalistlər,



ekspertlər də dəvət olunmuşdular.

Hesab edirəm ki, ilk dəfə olaraq Milli Mətbuat Günündə bu cür intellektual bir tədbir keçirildi. Keçirilən bu forum çərçivəsində medianın transformasiyası, Azərbaycan mətbuatının qarşısında duran vəzifələr, Azərbaycan mətbuatının beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi kimi vacib məsələlər müzakirə olundu. Bunlar şübhəsiz ki, müstəqil Azərbaycan mətbuatının tarixində bir yenilik idi. Eyni zamanda, Prezident İlham Əliyevin Azərbaycan jurnalistlərinə etdiyi müraciət Azərbaycan jurnalistlərin fəaliyyətinə verilən yüksək diqqətin və etimadın nümunəsi idi. Düşünürəm ki, forum çərçivəsində müzakirə olunan məsələlər Azərbaycan mətbuatının gələcək fəaliyyətində mühüm istiqamət kimi yer tutacaq”.

***Arzu Qurbanlı***

## ”Fərman yeni hüquqi bazanın yaradılması istiqamətində mühüm rol oynayacaq”

“Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 17 iyun tarixli 546-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin ”Elektroenergetika haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1998-ci il 13 iyun tarixli 723 nömrəli və ”Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2018-ci il 16 iyul tarixli 204 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 25 iyul 2022-ci il tarixli Fərmanı istilik enerjisi sahəsində fəaliyyətin gücləndirilməsi, səmərəliliyin artırılması və istehlakçıların istilik enerjisinə olan tələbatının etibarlı şəkildə ödənilməsinin təmin edilməsi məqsədi ilə yeni hüquqi bazanın yaradılması istiqamətində mühüm rol oynayacaqdır. Qurumun mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, fərmanda ilk növbədə bu sahəni tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilməsi, istilik enerjisindən istifadə qaydalarının təsdiq olunması nəzərdə tutulur ki, bu da istilik enerjisindən istifadə sahəsində enerji təchizatı müəssisəsi ilə həm istehlakçı, həm də digər qurumlar arasında qarşılıqlı münasibətləri tənzimləyən sənəd olacaqdır. Hazırda istilik enerjisi sahəsində istehlakçı və enerji təchizatı müəssisəsinin hüquq və vəzifələri, texniki şərtlərin verilməsi, sayğacların quraşdırılması, hesablaşmaların aparılması, istilik enerjisinin verilməsinin dayandırılması, təchizatçı və istehlakçı arasında sərhədlərin məyyənləşdirilməsi kimi məsələləri tənzimləyən və ümumilikdə sistemin səmərəli fəaliyyətinə təsir edə biləcək hüquqi aktların hazırlanmasına böyük ehtiyac vardır ki, qeyd olunan Fərman bu sahədə münasibətlərin tənzimlənməsində əhəmiyyətli rol oynayacaqdır.

Bundan başqa sözügedən Fərman ”Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan bir sıra tənzimləyici alətlərin istilik enerjisi sahəsində də tətbiqinin nəzərdə tutulması və bu sahədə idarəetmənin təşkil olunmasını tənzimləyən sənəd kimi xüsusi əhəmiyyətə malikdir.

# Şuşadan dünyaya, dünyadan Şuşaya...

**Düz 1 il 8 ay bundan əvvələ qədər ölkəmizin mediası dünyaya Şuşadan danışırdı. Həm də 30 il idi ki, danışırdı. Bu gözəlliklər diyarına edilən haqsızlıqdan, beynəlxalq təşkilatların bu haqsızlığa susmasından danışırdı. İllərdi ki, Azərbaycan mediası Şuşadan yazırdı, sosial şəbəkələr vasitəsilə dünyaya erməni vandalizmindən danışırdı. Bu gözəl yurdun sakinlərinin qaçqın, köçkün, didərginliyindən, bu bənzərsiz təbiət gözəlinin yadların əlində dustaqlığından yazırdı.**

Bu qələmlər dərdin töküb vərəqlər üzərinə illər uzunu... İşğaldan, yurd acısından, hicrandan, yurd həsrətlilərindən yaza-yaza incəlib, ölüb-dirilib, mürəkkəbini qara libasına çevirib əyninə geyinib illər uzunu. Nəhayət, 1 il 8 ay əvvəl ilk dəfə Zəfər sözünü yazan da bu qələmlər oldu. Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə milli ordumuzun canı-qanı bahasına qazandığı Zəfərdən yazmaq da nəsibi oldu bu qələmlərin. Mürəkkəbindən qürur süzdü vərəqlərə. Çünki 30 ilin əvvəli ilə sonu arasındakı bir qərinəyədək dövrü salnamələşdirib dünyaya çatdırması ilə daim cəbhədəki qılıncınla çiyin-çiyinə olmuşdu bu qələmlər...

Bəli, bizim qələbəmiz qılınc və qələmimizin birgə qələbəsidir. 22 iyulda-Milli Mətbuat və Jurnaklistika Günündə Beynəlxalq Media Forumunun ilk dəfə Şuşada keçirilməsi də illərin arzusu olan bu qələbəyə 200-ə yaxın yaradıcı in-




sanın, qələm sahibinin göz aydınlığı verməsi dəyərində oldu. Möhtəşəm Zəfərimizi bizə bəxş edən Ali Baş Komandanımıza bu Forumun da keçirilməsində təşəbbüsünə görə qəlbən minnətdar olduq. Bir daha ölkəmizdə qələm sahiblərinə verilən dəyərin şahidi olduq.

Həmkar qonaqlarımızı illər ərzində yazılarımızla tanış etmişdik Şuşayla. Bir də bu gözəlliyi, canlı coğrafiyanı və tarixi gözləri ilə görmələri qürurumuzun üzərinə qürur gətirdi. Çünki Şuşa özü qürurdur. Tarix, mədəniyyət, ədəbi dünya, təbiət ensklopediyası, bir də ki, Qarabağın tacı, hər bir azərbaycanlının göz bəbəyidir...

## Tanrının xoş vaxtının Şuşası...

Bizdə belə bir deyim var: Tanrının xoş vaxtı. Gözəl bir yer, insan görəndə deyərik ki, bəh-bəh, gözəlliyə bax, Tanrının xoş vaxtına düşüb elə bil. Şuşa da Tanrının xoş vaxtına düşüb, vallah. O, bir möcüzə, bir yaradıcı qüvvənin əl işi, yaratdığı gözəllik, bir təbiət bəxşişidir. Yaradan onu anbaan, saatbasaat əllərinin minbir sığalı ilə yaradıb. Qarabağa baş tacı, Azərbaycan mədəniyyətinə paytaxt edib bu şəhə-



ri. Bu yurdun hər daşına, qayasına, gülünə-çiçəyinə musiqi duyumu bəxş edib. Onun havasını udanlar zaman-zaman bu musiqi duyumunu da onunla bərabər ciyərlərinə çəkib bülbül kimi cəh-cəh vurublar.

Elə bu ay Şuşada Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə keçirilən "Vaqif Poeziya Günləri"ndə Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, Əməkdar mədəniyyət işçisi Rəşad Məcidin Şuşa ilə bağlı xatirələrində söylədiyi kimi: Keçən il işğaldan sonra ilk dəfə Cıdır düzündə "Xarıbülbül" festivalına gəldik... Həmin günün səhəri gözümü Şuşada açanda inana bilmirdim. Bir də gördüm qulağıma azan səsi kimi Alim Qasımovun (Xalq artisti - red.) canlı muğamı gəlir.





Bütün bunlardan ilhamlanaraq 42 ildən sonra Şuşaya yeni şeir həsr etdim:

*Min şəhər adı var dillərdə əzbər,*
*Adların ən üstün adıdır Şuşa.*
*Musiqi notudur cüt hecasıyla,*
*Dilimin şəhdidir, dadıdır Şuşa.*

Ulu Yaradan Şuşanı dağların qoynuna yerləşdirib, zivəyə doğru yalçın qayalarla qol-boyun edib. Tanrı özü də bu yurdu sevib sanki. buranı əl uzatsan səmaya çatacaq hündürlükdə yaradıb ki, düşməndən qorunsun, daim pak qalsın. Elə onun sirri-sehri də bu yadılışındadır.

*Qoynuna hər gələn yüz xəyal eylər,*
*Uzaqdan baxanlar qeylü-qal eylər.*
*Birini coşdurar, birin lal eylər,*
*Tilsimdir, ovsundur, cadudur Şuşa.*
*270 ilin şəhəri qonaqlarına özündən danışdı*

Elə Yaradanın Qarabağ xanı Pənahəli xana bəxş etdiyi güc, qüvvə, istəklə 1752-ci ildə Şuşa yaradıldı. Tarixin o üzündən boylanan Şuşanın yaşı hələ bundan da qədimdir. Çünki o, Azərbaycanın əzəli torpaqları üzərində 270 il bundan əvvəl Şuşa kimi yaradılıb.

Pənahəli xan özünü bu torpaqların xanı elan edəndən



sonra xanlıq ərazisini düşməndən qorumaq üçün möhkəmməl qala tikdirməyi qərara alıb. 1748-ci ildə Bayat qalası, 1752-ci ildə isə Şahbulaq qalası inşa edilib. Sonra isə Pənahəli xan daha ehtibarlı sığınacaq barədə düşünür və üç tərəfi keçilməz sıldırım qayalarla əhatə olunan əlçatmaz dağ yaylasında yeni bir qala ucaltmağı qərara alır. Yeni qala əvvəl banisinin adı ilə "Pənahabad", sonralar isə "Şuşa" adlandırılır.

Tarix də sübut edir ki, feodal müharibələri dövründə Şuşa bir neçə dəfə çətin sınaqlardan uğurla çıxaraq qalib gəlib. Bu qalaya hücum edənlər onu ala bilməyib. Beləliklə Şuşanın işğalının mümkünsüzlüyünü tarixin özü, bu yerin təbiəti, coğrafiyası subut edib. Çünki onu İlahi öz qüdrəti ilə yaratmışdı. Bəs necə olmuşdu ki, bu əlçatmaz şəhər 1992-ci ildən üzübəri 30 ilə yaxın erməni qəsbində qalmışdır. Axı onun müdafiəsi Tanrının işi idi. Tanrının işinə kim qarışa bilərdi.

Satılmışdı Şuşa. Ozamankı Azərbaycan rəhbərləri tərəfindən satılmışdı. Xəritə ilə düşmənə haradan girib haraya gedəcəkləri göstərilmişdi. Yoxsa ermənı hara, Şuşanı əldə



etmək hara. Bura bəlkə də dünyada yeganə məkandır ki, özünün özünü qorumaq gücü var. Çünki Tanrı onu bu xalq üçün yaratmış, "dilini" də tək onlara anlatmışdı.

Beynəlxalq Media Forumunun iştirakçıları bu şəhərin möcüzəsini öz gözləri ilə gördülər. Şuşa özündən danışdı onlara, tarixini bir daha xatırladı. "Şuşa ili"ndə həm də 270 yaşlı şəhərin yubileyinin qeyd ediləcəyindən xəbərdar etdi qonaqlarını.

## Şuşa Dünya Media Forumuna ev sahibliyi etməyə layiqdir

30 il Şuşadan dünyaya danışan media mənsublarımız İkinci Vətən Müharibəsindəki Zəfərimizdən ötən dövr ərzində doğma Şuşamızda ayrı-ayrı vaxtlarda qonaq olan dünya media nümayəndələrinin 30 ilin vəhşilikləri ilə tanış olmalarından, dünyaya çatdırdıqlarını bir də onların öz gözləri ilə görmələrindən məmnun qalırlar. 22 iyulda Medianın İnkişafı Agentliyinin (MEDİA) təşkilatçılığı ilə keçirilən Beynəlxalq Media Forumuna gələn nümayəndə heyəti də bu şəhəri gəzdilər, gördülər.

Dörd maraqlı panel üzrə keçirilən Beynəlxalq Media Forumunda müzakirə olunan məsələlər, fikir mübadilələri Azərbaycan mediasının beynəlxalq əməkdaşlıq perspektivlərindən xəbər verir. Forumun "Azərbaycan mətbuatında Şuşa izi" adlı panel iclası daha çox diqqətçəkəndir. Çünki Şuşa beynəlxalq aləm, dünya mətbuatı üçün əvəzolunmaz mövzudur. Yeni məqalələrin, əsərlərin yaranma mövzusudur. TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman Şuşada keçirilən Beynəlxalq Media Forumunda çıxışı zamanı 3 il sonra - Azərbaycanmətbuatının 150-ci ildönümündə Şuşada Dünya Media Forumu keçirilməsini təklif etdi.



Çox gözəl təklifdir. Hər birimiz qüruur duyarıq ki, dünənədək dünyaya haqqında danışdığımız Şuşada dünyanın media nümayəndələrinin birgə forumu keçirilə. 30 il beynəlxalq təşkilatların susma səbəblərini burada müzakirə edib onların haqsız olduqlarına, Qarabağ məsələsinə ədalətsiz yanaşdıqlarına bir daha əmin olalar. Şuşanın dünyaya səslənməsinin, kömək istəməsinin cavabsız qaldığını bir daha biləlsər. Düşmənin bu şəhərin mədəni-tarixi abidələrini necə məhv ediyini dünyaya bir daha çatdıralar.

Mətbuatımızn 150 yaşına 3 il var. Bu üç ildə Şuşanın gözəlliyinin üstünə onlarla gözəllik əlavə olunacaq. Dünya Media Forumunun burada keçirilməsi baş tutarsa, Şuşaya




gələn nümayəndələr bu gözəllər gözəlinin tarixinə də, özünə də heyran qalacaqlar.

Hələ öyrənəndə ki, müharibə dövründə xüsusi təyinatlılarımız bu şəhəri əlbəyaxa döyüşlə geri alıblar, bu sıldırım qayalardan şəhərə sinələrinin gücü ilə qalxıblar, Şuşanın həqiqətən alınmaz qala olduğuna bir daha əmin olacaqlar. Və bütün dünyanın bunu bilməsi çox vacibdir. Ona görə ki, biz torpağımızı şərəfimiz bilirik. Onun hər qarışı üçün də hər zaman canımızdan keçmişik. 90-cı illərdə bu torpaqlar satılmışdı. Minlərlə şəhidimiz, qazimiz isə bütün bunlardan xəbərsizcə qurbanlara çevrilmişlər.

Beləliklə, dünənədək Şuşadan dünyaya danışırdıq, indi dünyanın Şuşadan danışmaq vaxtıdır.

**Mətanət MƏMMƏDOVA**

## "Əsas məsələ dairə sərhədlərinin müəyyən edilməsidir"

"Bizm üçün əsas məsələ dairə sərhədlərinin müəyyən edilməsi ilə bağlıdır. Bu, həm də ciddi bir məsələdir". SİA-nın xəbərinə görə, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov komissiyanın dünən keçirilən iclasında deyib.



MSK sədrinin sözlərinə görə, burada müəyyən maraqların toqquşması, yeni məntəqələrin yaradılması ilə bağlı problemlər ola bilər: "Çünki yeni yaradılan hansısa məntəqəyə görə əhalini həmin seçki məntəqəsində səs verməyə məcbur etmək olmaz. Ona görə hansı yerlərdə problem olma ehtimalı varsa, dairə sərhədlərinin müəyyən edilməsinə oradan başlamaq lazımdır".

"Elə etmək lazmdır ki, dairələrin sərhədlərinə toxunulmasın. Biz çalışırdıq ki, 3 adlı dairələr olmasın. Bütün ölkə üzrə sərhədlərin toxunulmazlığını nəzərə alaraq, maksimum çalışmaq lazımdır ki, 2 addan o tərəfə keçməyək. Yaşayış məntəqələri arasında konflikt yaradılmamasına diqqət edilməlidir. Maksimum elə etmək lazımdır ki, seçki dairələrinin sərhədləri ilə bağlı problem yaranmasın", - o bildirib.

# Vətən öz qəhrəman övladlarını unutmur!

*Masallıda şəhid Sübhan Həsənovun doğum günündə xatirəsi anılıb*

Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev, Masallı rayon icra hakimiyyəti başçısı aparatının Vətən müharibəsi iştirakçıları və Şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Qəşəm Hadıyev, rayon ictimaiyyətinin nümayəndələri və partiya fəalları şəhidin xatirəsini ehtiramla anıb, ruhuna dualar oxuyublar.





Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev şəhidin ailəsinə başsağlığı verərək, Azərbaycan Ordusunun qüdrətindən, şəhidlərimizin döyüş zamanı göstərdiyi qəhrəmanlıqlardan, dövlətimizin şəhid ailələrinə göstərdiyi diqqət və qayğıdan danışıb, hər zaman dövlətin şəhid ailələrinin yanında olduğunu bildirib. Şəhidin ailə üzvləri dövlət səviyyəsində şəhid ailələrinə göstərilən diqqət və qayğıdan razı qaldıqlarını bildirib. Onlar ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

***Rəfiqə***

# YAP Yasamal rayon təşkilatının əməkdaşları şəhid Kənan Dadaşzadənin ailəsini ziyarət edib

Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatı tərəfindən 44 günlük Vətən müharibəsi şəhidi Dadaşzadə Kənan Elman oğlunun ailəsi ziyarət olunub. Təşkilat nümayəndələri şəhid ailəsinin qayğı və problemləri ilə maraqlanıb. YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirdi ki, bu gün fəxrlə söylədiyimiz həmin şanlı Qələbəni Cənab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun, əsgər və zabitlərimizin yüksək peşəkarlığı sayəsində əldə etdik. Bizlər də vətəndaş olaraq torpaqlarımızın hər bir qarışının işğaldan azad edilməsi üçün canından, qanından keçən şəhidlərimizlə, qazilərimizlə, Azərbaycan Ordusunun əsgər və zabitləri, hərbçiləri ilə fəxr edir, qürur duyuruq. Bir ömür boyu onlara borclu və minnətdar olmalıyıq. Ən böyük amalımız, işimiz, vəzifəmiz şəhidlərimizi, qazilərimizi tanımaq və tanıtmaqdır. Şəhidin ailə üzvləri göstərilən diqqətə və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər. Qeyd edək ki, Cənab Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən şəhid Dadaşzadə Kənan Elman oğlu ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib. Allah bütün şəhidlərimizə rəhmət eləsin!





***Zümrüd***

# YAP Binəqədi rayon təşkilatı sədrinin ərazi partiya təşkilatının üzvləri ilə görüşü keçirilib



Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılovun H.Ağamalıyev küçəsi 5 ünvanlı ərazi partiya təşkilatının üzvləri ilə görüşü keçirilib. Görüşü giriş nitqi ilə açan Vüsar İsmayılov əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan, dövlətimizin bütün sahələrdə davamlı və dayanıqlı inkişafını təmin edən siyasi strategiyadan bəhs edib. Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın böyük uğurlara imza atdığını, iqtisadi, siyasi, sosial, mədəni həyatda qazanılan nailiyyətlərə diqqət yönəldib. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsindəki tarixi qələbəmiz barədə fikirlərini qeyd edərək, ordumuz tərəfindən işğal altındakı torpaqlarımızın azad edilməsini misli görünməmiş qəhrəmanlıq salnaməsi adlandırıb. Ordumuzun vətənpərvərliyinin və peşəkarlığının əsl nümunə olduğunu qeyd edib. V.İsmayılov çıxışının davamında partiyanın ötən ilin mart ayının 5-də keçirilən VII qurultayında qəbul edilən qərarlara toxundu, ölkəmizdə həyata keçirilən islahatlara paralel olaraq partiya daxilində aparılan uğurlu islahatlardan danışıb. Rayon təşkilatının sədri çıxışının sonunda rayon təşkilatının fəaliyyətindən, qarşıda duran vəzifələrdən danışaraq, ərazi partiya təşkilatının üzvlərinə tövsiyələrini verib. Onları daha fəal olmağa, partiyanın fəaliyyətində yaxından iştirak etməyə çağırıb. Görüşdə ərazi partiya təşkilatının sədri, Rəsulzadə Bələdiyyəsinin sədri Hümbət Hüseynov, ərazi partiya təşkilatının üzvləri Leyli Tahirova, Səadət Abbasova və başqaları çıxış edərək, təşkilatın fəaliyyəti və keçirilən görüşlər barədə məlumat veriblər, fikirlərini və təkliflərini bölüşüblər. Onlar partiya rəhbərliyi tərəfindən göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirərək, bu cür görüşlərin onların fəaliyyətinə əlavə stimul olduğunu bildiriblər. Görüş birgə fikir mübadiləsinin aparılması ilə yekunlaşıb.

***Z. BAYRAMOVA***



# Şəhid Feyruz Tarverdiyevin doğum günündə xatirəsi anılıb

Yeni Azərbaycan Partiyası (YAP) Kürdəmir rayon təşkilatının sədri Ayaz Cəbrayılov, Kürdəmir rayon İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Mirmahmud Mahmudov, şəhid anası Simuzər Bağıyeva, rayon təşkilatının əməkdaşları Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına şəhid olmuş Tarverdiyev Feyruz İslam oğlunun doğum günü ilə əlaqədar şəhidin rayonun Sığırlı kəndində yerləşən məzarını ziyarət edərək, məzarı üzərinə gül dəstələri düzüblər, xatirəsini ehtiramla yad ediblər.



Daha sonra tədbir iştirakçıları şəhidin ailə üzvləri ilə görüşüb, onların qayğı və problemləri ilə maraqlanıblar. YAP Kürdəmir rayon təşkilatının sədri Ayaz Cəbrayılov bildirib ki, şəhidlərimizin ruhu bizim üçün çox əzizdir, bugünkü Qələbəni bizə yaşadan şəhidlərimizin ruhu qarşısında baş əyirik, şəhid analarına dərin minnətdarlığımızı bildiririk. 44 günlük Vətən müharibəsi və tarixi qələbəmiz Azərbaycan xalqının nəyə qadir olduğunu göstərdi. Xalqımızın birliyi, Ali Baş Komandanımızın qətiyyəti, Ordumuzun gücü, əsgər və zabitlərimizin peşəkarlığı, qəhrəmanlığı parlaq Zəfərimizin qazanılması ilə nəticələndi.

Tədbirdə çıxış edənlər şəhid Tarverdiyev Feyruz İslam oğlunun keçdiyi şərəfli həyat yolundan və döyüşlərdə göstərdiyi igidlikdən söhbət açıblar.

Şəhidin ailə üzvləri şəhid ailələrinə göstərilən diqqət və qayğıdan razılıqlarını ifadə edərək, Prezident, Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

Qeyd edək ki, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılaraq hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə, şəxsi igidlik və şücaət nümayiş etdirdiyi üçün şəhid Feyruz Tarverdiyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

# “Hər zaman böyüklərə, kiçiklərə münasibətimiz tam fərqli olub”



Bakı şəhər Dövlət Yol Polis İdarəsinin baş inspektoru, polis mayoru Araz Əsgərli SİA-ya müsahibə verib. Həmin müsahibəni təqdim edirik:

***- Son zamanlar yol-nəqliyyat hadisələrinin sayı çoxalıb. Ümumiyyətlə yol-nəqliyyat hadisələrinin baş verməsinə əsas səbəb kimi nə göstərilir?***

- Paytaxt ərazisində son illərlə müqayisədə yol-nəqliyyat hadisələrinin sayının azalmasını müşahidə edirik. Amma bununla belə baş vermiş hadisələrin, qəza nəticəsində dünyasını dəyişənlərin sayı həqiqətən ciddi və hər birimizi narahat edən rəqəmlərdir. Bildiyimiz kimi Bakı şəhəri respublikanın ən böyük şəhəri və əhalinin ən sıx məskunlaşdığı bir şəhərdir. Burada baş vermiş hadisələri digər ərazilərlə təhlil etdikdə müəyyən meyarları nəzərdən qaçırmamalıyıq. Respublika ərazisində 1 milyon 630 minə yaxın nəqliyyat vasitəsi var. Bu gün həmin nəqliyyat vasitələrinin sayının ümumi 70%-ə qədəri paytaxt ərazisindədir. Bu hərəkət dinamikasını, sıxlığını nəzərə alaraq avtomobil sayını, insan sıxlığını hər birinin düzgün şəkildə təhlilini aparsaq, görərik ki, ötən illərlə müqayisədə ümumi hadisələrin sayı azalıb.

***- Yol-nəqliyyat hadisələrində ən çox hansı hallarla rastlaşmısınız?***

- Paytaxt ərazisində yol-nəqliyyat hadisələrinin baş verməsinin 23,6%-i sürət həddinin aşılmasına görə, 36,7%-i manevr qaydalarının pozulması, 2,6%-i qarşıdan gələn nəqliyyatın yoluna çıxma, ötmə qaydalarının pozulması, 25,7%-i ara məsafələrinin düzgün seçilməməsi, 5,7%-i yol ayrıcının keçilmə qaydalarının pozulması, 5,2%-i piyada keçidlərindən keçilməsi qaydalarının pozulması, 1,7%-i svetoforun qadağanedici işarəsinin tələbinin pozulması, 6,6%-i piyadalar tərəfindən qaydaların pozulması və 1,5%-i isə naməlum yol-nəqliyyat hadisələridir. Bütün bunlar yol hərəkəti təhlükəsizliyinə təsir edən bütün növ qayda pozuntularıdır. Ümumiyyətlə insanlarda məsuliyyətsizlik halı çoxdur. Paytaxt ərazisində 6 ay ərzində ümumilikdə 229 ölüm və xəsarətlə nəticələnən yol-nəqliyyat hadisəsi qeydə alınıb. 229 yol-nəqliyyat hadisəsində 85 nəfər dünyasını dəyişib, 189 nəfər müxtəlif növ bədən xəsarəti alıb. Ümumilikdə ortalama rəqəmlərə baxdıqda ötən 6 ay ilə bu ilin 6 ayı arasında rəqəmlərdə ciddi fərqlər var.

***- Piyadaların piyada keçidlərinin yaxınlığında olduğu halda keçiddən istifadə etməmələrinin dəfələrlə şahidi olmuşuq. Ümumiyyətlə bu insanlarla bağlı hansı tədbirlər görülür?***

- Hər bir dövlət orqanının özünəməxsus səlahiyyətləri var. Qanunvericiliyin tələbləri hər bir sahə üzrə müəyyən olunmuş qaydalardır. Məsələn piyada üçün nəzərdə tutulmamış yerdə keçilməsi İnzibati Xətalar Məcəlləsində 338-ci maddəyə uyğun olaraq 20 və 40 manat məbləğində cərimə nəzərdə tutulub. 80 kilometrdən yuxarı olan yollarda piyada düzgün şəkildə yolu keçməsə, 40 manat məbləğində cərimə nəzərdə tutulub. Piyada nəzərdə tutulmamış ərazidə keçid edən zaman polis əməkdaşının yaxınlaşıb hər hansı bir inzibati protokol tətbiq etməsi həmin piyadanın həyatında mühüm rol oynaya bilər. Çünki həmin polis əməkdaşı piyadanı qayda pozuntusundan qırağa çəkərək hər hansı bir yol-nəqliyyat hadisəninin qarşısı alındı. Bu məsələlərin ciddiyətinin, mahiyyətinin, düzgün şəkildə təhlilinin formalaşdırılmasında ictimaiyyətin böyük rolu var. Yol hərəkəti qaydaları həyati əhəmiyyətə malikdir. Burada qaydaları pozmaq, səhv etmək və həmin səhvi düzəltmək üçün uzun müddət yoxdur. Bu məsələdə medianın, cəmiyyətin üzərinə böyük yük düşür. Orta məktəblərdə və digər təhsil müəssisələrində hədsiz görüşlər keçiririk, uşaqlara tövsiyələr veririk. Uşaqlara yol hərəkəti qaydalarına düzgün şəkildə və hörmətlə yanaşmalarını öyrətmək lazımdır. Bizim ölkəmizdə elə bir situasiya yaranıb ki, hər zaman böyüklərə, kiçiklərə münasibətimiz tam fərqli olub. Cəmiyyətimizdə bu qaydalar hüquqi çərçivə ilə yanaşı, eyni zamanda mənəvi normalara çevrilib. Bu cür mənəvi dəyərləri də itirmək olmaz.

***- Bu gün paytaxtda avtomobillərin düzgün parklanmaması nələrə səbəb ola bilər?***

- Avtomobillərin düzgün parklanmaması, dayanma-durma tələblərinin pozulması aktual məsələlərdən biridir. Avtomobillərin düzgün parklanmaması yollarda tıxacın yaranmasına, dayanma-durma tələblərinin pozulması piyadaların təhlükəsizliyinin pozulmasına səbəb ola bilir. İctimai nəqliyyatın rahat və fasiləsiz hərəkəti bizim qarşımızda əsas məqsədlərdən biri kimi dayanır. Çünki ictimai nəqliyyat nə qədər inkişaf etsə, nə qədər bu sistem optimallaşsa, yol hərəkəti təhlükəsizliyinə bunun çox böyük köməyi ola bilər.

***Arzu Qurbanlı***



**İLHAM**

# ”Azəriqaz” İB yenə də əhaliyə ilişir

Mövcud fakt və reallıq ondan ibarətdir ki, zəngin yealtı-yerüstü sərvətlərə malik Azərbaycan Respublikasının neft-qaz sənayesi dünya ölkələri arasında ən sürətlə inkişaf edən sənayedir. Söz yox ki, bu sahədə uğurlu nailiyyətlərin əldə olunması insanların yaşam tərzinə də müsbət təsirlərini göstərməlidir. Xüsusilə də, hazırkı dönəmdə dünya bazarında təbii qazın qiymətində artımların olması o xoş müjdəni yaradır ki, ölkə əhalisi bu sərvətdən və qiymət artımından geninə-boluna bəhrələnmək imkanı qazanacaq. Ancaq sən saydığını say, gör ”Azəriqaz” Qapalı Səhmdar Cəmiyyətinin başbilənləri nə sayır. Təbii qazın təzyiqi ürəkaçan olmadığı kimi, nə əlləm-qəlləm oyunlar qururlarsa, vaxtaşırı idarə, müəssisə, fərdi yaşayış evlərində təbii qazdan yanğınlar, partlayışlar baş verir. Bu kəmkəsir barədə geniş yazıb, oxucularımızın yenidən ürəklərini bulandırmaq istəmirəm, sadəcə, qeyd etməyi vacib hesab edirəm ki, bu qurumun işi və fəaliyyəti ”Azəriqaz” İB rəhbərliyinin maraqlarını təmin etsə də, cəmiyyətin mənafeyinə ziddir. O gün baş direktorun sosial şəbəkələrdə paylaşdığı bir statusundan oxuyuram ki, ””Azəriqaz” İB-nin yenidən qurulması və istehsalatın müasir tələblər səviyyəsində təşkili istiqamətində həyata keçirilən geniş proqramlar çərçivəsində növbəti layihələri reallaşdırmağı planlaşdırırlar”. Statusu oxuduğum andan ürəyimdən keçdi ki, kaş bu yeni layihə nədirsə reallaşmayaydı. Ən azı ona görə ki, bu yeni layihə istehlakçıların mənafeyini oxşamayacağı şübhəsidir. Çünki yenilik, müasirlik ”Azəriqaz” İB-lik deyil. Misal: Dünya əhalisi bank kartları vasitəsi ilə qaz sayğaclarına ödəniş yükləyir, ”Azəriqaz” İB isə hələ də ötən əsrin 90-cı illərinin üsulundadır, yəni köhnə əyyamlarda qalıblar. Və ya dünyanın əksər ölkələri qaz sayğaclarının idarəedilməsini cip kartlar vasitəsilə həyata keçirir, ”Azəriqaz” İB isə bir addım irəli, beş addım geri prinsipinə uyğun olaraq istehlakçılara mexaniki qaz sayğacları sırıyırlar. ”Azəriqaz” İB həm də qurub-quraşdırdığını hansısa yeni layihənin icrası adı altında dağıtmaqla da məşğuldur. O gün məlumat yayıldı ki, ”Azəriqaz” İB qaz borularının sayğaclara birləşən hissəsini dəyişir. Açıq və səmimi deyim, məlumatı eşidərkən düşündüm ki, bu ”yenilik” heç də əhalinin xeyrinə olmayacaq. Həqiqətən də, düşündüklərimdə haqlı çıxdım. Bəlli oldu ki, qaz sayğaclarına birləşən boruların təqribən 60-70 santimetr hissəsini heç dəxli olmadan dəyişirlər. Dəyişsinlər və nə maraqları varsa, özləri bilərlər. Ancaq borunu dəyişməklə yanaşı, qaz sayğaclarını yağışdan, qardan qoruyan örtüyü də sındırıb, dağıdıb gedirlər. Etiraz etmək, narazılığını bildirmək də mənasızdır. Qaz sayğacının örtüyünün sındırılıb sıradan çıxarılması ilə zərər görən istehlakçı cəsarət nümunəsi orta qoyub, ”yenilikçilərə” ”niyə qaz sayğacının örtüyünü sındırıb aradan çıxırsınız” desə, daha bir ziyana düşə bilər. Ən azı təhqir olunar, söyüşlərə qonaq ola bilər. Bu barədə, çoxsaylı faktlar mövcuddur. Hələlik isə, bu qədər. Həqiqətən də, bizə belə ”Azəriqaz” Qapalı Səhmdar Cəmiyyəti lazım deyil.

# “Ermənistan dünya arenasındakı subyektivliyini itirib”



**Fərhad Məmmədov: ”Azərbaycan cəmiyyətinin daxili konsolidasiyası, Prezident İlham Əliyevin legitimliyi və əsas xarici aktorların region maraqlarını üzərinə cəlb etmək bacarığı Azərbaycana öz gündəmini diktə etməsinə, irəliləməsinə imkanlar yaradır”.**

Azərbaycanlı siyasi analitik, Cənubi Qafqaz araşdırmaları institunun direktoru Fərhad Məmmədov özünün Teleqram səhifəsində Ermənistanın beynəlxalq aləmdə itirdiyi mövqeləri barədə danışıb. SİA xəbər verir ki, mövzu ilə bağlı şərh verən politoloqun sözlərinə görə, Ermənistan dünya arenasındakı subyektivliyini itirib.

”Son iki həftə müharibənin başa çatmasından ötən il yarımdan sonra nəzərəçarpan olub. İrəvanın silahlı qüvvələrini Qarabağdan çıxarması qərarı Ermənistanda diskussiya olunmur və bunun öz səbəbləri var”, deyən Fərhad Məmmədovun sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya sülhməramlıları kontingentinin (RSK) ünvanına tənqidedici çıxışından sonra Tbilisidə XİN rəhbərləri səviyyəsində keçirilən görüşdə Ermənistan öz silahlı qüvvələrini Qarabağdan çıxarmaq qərarını verdi. SİTAT: ”Azərbaycan öz gözləntilərini Rusiya tərəfinə ünvanladı, qərarı isə Ermənistan hökuməti verdi. Rusiyayönümlü parlament müxalifəti isə səsini belə çıxarmadı və Paşinyanı xəyanətdə ittiham etmədi. Bənzər mövqe parlamentdənkənar qərbyönümlü müxalifətdə də izlənildi. Yəni sözügedən məsələdə Qərb və Rusiya arasında konsensus mövcuddur ki, bu da Paşinyana bənzər fəaliyyət göstərməsinə imkan verir. Diqqət edin, onun legitimliyi deyil, məhz bu ölkənin əsas sponsorlarının mövqeləri üst-üstə düşür”.

Fərhad Məmmədov onu da bildirib ki, yalnız Ermənistanın subyektliyinin artması və Paşinyanın legitimliyinin güclənməsi normallaşma şərtlərində tərəqqi əldə edə bilər. ”Lakin praktika göstərdi ki, həll qərarlarına nail olmaq üçün Ermənistana təzyiq deyil, məhz onun sponsorları ilə razılaşmalar əldə etmək lazımdır. Bu isə həmin ölkənin subyektivliyinin olmamasının göstəricisidir. Əvvəllər olduğu kimi, həmin ölkələr ki, Azərbaycana təsir göstərmək istəyirlər, onlar bunu Ermənistan vasitəsi ilə edirlər”, deyən azərbaycanlı politoloq digər fikrini də önə sürüb. SİTAT: ”Lakin Azərbaycan cəmiyyətinin daxili konsolidasiyası, Prezident İlham Əliyevin legitimliyi və əsas xarici aktorların region maraqlarını öz üzərinə cəlb etmək bacarığı Azərbaycana öz gündəmini diktə etməyə, irəliləməyə imkanlar yaradır”.

Cənubi Qafqaz araşdırmaları institutunun direktorunun sözlərinə görə, İran Ermənistanın maraqlarını öz məqsədləri üçün istifadə edir. SİTAT: ”İran nümayiş etdirir ki, Ermənistanı müdafiə edir (amma öz maraqlarını müdafiə edir - F.M.), lakin Ermənistansız...

Paşinyanın özü və ətrafı İrana dəstəklə bağlı bəyanat səsləndirmirlər və bu, həm də onu göstərir ki, Ermənistan rəhbərliyi mövcud prosesdə onlardan çox az şeyin asılı olduğunu anlayırlar. Nəticədə regionda qərarlar Ermənistanın danışıqlar mövqeyinin zəifləməsi hesabına verilir. Düşünmək olar ki, bu trend sonrakı müddətlərdə də saxlanılacaq və Ermənistan-Azərbaycan münasibətlərindəki inkişaf Ermənistanın sponsorları ilə danışıqlar hesabına əldə ediləcək”.

***Rövşən RƏSULOV***

# ”Rus sülhməramlıları sülhdən başqa hər şeylə məşğuldur”

”Ermənistan həmişə başqalarının tapşırıqları ilə təxribatlar törətməyə çalışıb. Təəssüf ki, bu gün də eyni siyasəti davam etdirir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib.

Onun sözlərinə görə, Paşinyan və onun komandası çox gözəl başa düşür ki, bu təxribatlar onların ziyanınadır: ”Amma bildiyimiz kimi Ermənistanı bu işə məcbur edənlər var. Bu, həm Rusiyanın hərbi elitasıdır, həm də İrandakı müəyyən qüvvələrdir. Onlar bu qarşıdurmada Azərbaycanın zəifləməsini istəyirlər. Ona görə də, nə vaxta qədər ki, bu qüvvələr mövcuddur Ermənistan elə o vaxta qədər təxribatçı əməllərindən əl çəkməyəcək. Bundan əlavə olaraq bu təxribatları həmçinin rus sülhməramlıları da törədir. Bu o deməkdir ki, rus sülhməramlıları sülhdən başqa hər şeylə məşğuldur.

Prezident İlham Əliyev son çıxışında da Ermənistana və rus sülhməramlarına axırıncı xəbərdarlığını etdi. Azərbaycan Qarabağdakı erməni silahlı qüvvələrini oradan uzaqlaşdırmaq istəyir. Azərbaycan ilə Ermənistan arasındakı sülh müqaviləsinin imzalanması prosesinin uzanması sadəcə Ermənistana ziyandır. Azərbaycan öz şərtlərini elan edib. Ermənistan bu şərtləri qəbul edib sülh müqaviləsini imzalamalıdır. Əgər, bu olmasa, Azərbaycanın dəmir yumruğu hazırdır”.

***Arzu Qurbanlı***

# RUS EKSPERT: “Azərbaycan Qoşulmama Hərəkatının başında öz diplomatiyasının effektivliyini göstərdi”




**Yaxın gələcəkdə Bakıda BMT-dən sonra 2-ci ən böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatının liderlərinin sammiti keçiriləcək. Azərbaycan buna 2019-cu ildən başçılıq edir. Ötən il struktura üzv dövlətlərin müraciəti əsasında Azərbaycanın sədrliyi daha 1 il uzadılıb. Qoşulmama Hərəkatı 1961-ci ildə Soyuq Müharibə fonunda iki mübarizə aparan bloka - sosialist və kapitalist bloklarının əksinə yaradılıb.**

Bu gün Qoşulmama Hərəkatı xarici siyasəti hərbi-siyasi bloklarda iştirakdan imtinaya və xalqların müstəqillik və bərabərlik prinsipləri əsasında dinc yanaşı yaşamasına əsaslanan 120 dövləti birləşdirir. Bu yaxınlarda Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi, eləcə də Gənclər Şəbəkəsi yaradılıb. Nyu-Yorkda təşkilata dəstək ofisi yaradılıb.

Politoloq, Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin filialının direktoru Pavel Klaçkov "Moskva-Bakı" portalına açıqlamasında Azərbaycanın Hərəkata sədrliyinin Azərbaycan diplomatiyasının effektivliyini göstərdiyini və bu beynəlxalq təşkilatın yeni səviyyəyə qalxmasının bugünkü çətin beynəlxalq şəraitə necə təsir göstərə biləcəyini şərh edib.

- Biz görürük ki, son illər Azərbaycan beynəlxalq aləmdə öz rolunu necə çox fəal şəkildə artırır. Bugünkü Azərbaycan diplomatiyasının işinin səmərəliliyinə misal olaraq Qoşulmama Hərəkatının tamamilə yeni səviyyəyə qaldırılmasını göstərmək olar ki, bu, Bakının təkcə dövrün çağırışlarını həssas şəkildə dərk etməsinin deyil, həm də heç kimin himayəsi olmadan bu qlobal çağırışlara cavab tapmaq üçün gündəm formalaşdırmaqla müstəqil şəkildə fəaliyyət göstərmək bacarığının təzahürüdür. Bu, Azərbaycana yalnız regional siyasətə təsir imkanlarından kənara çıxmağa imkan verdi. Azərbaycan son illərdə xüsusilə aydın şəkildə göstərdi ki, o, regiondan xeyli irəlidədir və bunu çox yaxşı edir.

Təsadüfi deyil ki, bu təşkilata üzv olan dövlətlər Azərbaycanın sədrliyinin daha bir il uzadılmasını tələb ediblər. Bu çox şey deyir. Hərəkatın başında Azərbaycan özünü son dərəcə məsuliyyətli dövlət kimi, ədalətdə israrlı bir dövlət kimi göstərdi.

Məlum olduğu kimi, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi bütün dünya üçün çətin illərə düşüb. Məgər biz Azərbaycanın bu struktura rəhbərlik etdiyi 2019-cu ildə qlobal pandemiyanın bizi gözlədiyini, eləcə də bütün beynəlxalq təhlükəsizlik sisteminin tamamilə fərqli mövcudluq tərzinə keçidini edə bilərdikmi?

Pandemiya dövründə kiçik, lakin güclü dövlət kimi görünən Azərbaycan 80-dən çox ölkəyə humanitar və maliyyə yardımı göstərib. Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi BMT Baş Assambleyasının koronavirusla mübarizə üzrə xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış edən ilk dövlət olub. Bundan əlavə, Bakı Azərbaycanın xüsusi səlahiyyətə malik olduğu müxtəlif strukturlarda pandemiya və onun nəticələri ilə mübarizə məsələsini mütəmadi olaraq qaldırıb. Azərbaycan Respublikası ilə mütəmadi olaraq vaksinlərin varlı və kasıb dövlətlər arasında ədalətsiz- qeyri-bərabər bölüşdürülməsi məsələsini qaldırmış və kasıb ölkələrə yardım etmişdir. Bu isə son dərəcə məsuliyyətli dövlətin siyasətidir.

Azərbaycan Hərəkata sədrliyi dövründə başqa məsələləri də gündəmə gətirib. Bu yaxınlarda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin iclası zamanı Prezident Əliyev qeyd etdi ki, Azərbaycan beynəlxalq siyasətdə münaqişələrin həllinə ədalətsiz münasibətin nə olduğunu öz təcrübəsindən öyrənib. Təxminən 30 ildir ki, Qarabağ münaqişəsi öz həllini tapmayanda, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına mane olması səbəbindən. Azərbaycan Prezidenti ilə razılaşmamaq olmaz - fakt budur ki, BMT-nin bəzi qətnamələri bir neçə gün ərzində yerinə yetirilir, digərləri isə illərlə, onilliklərlə icra olunmur. Bununla bağlı Əliyev BMT-də islahatların aparılmasının tərəfdarı olub. Yeri gəlmişkən, Azərbaycanın Qoşulmama Hərəkatını səmərəli idarə etməsinin nümunəsi belə bir əminlik yaradır ki, eyni şəkildə Bakı istənilən beynəlxalq təşkilatı yeni səviyyəyə qaldıra bilər, heç olmasa, bu istiqamətdə əlindən gələni edərdi. Baxmayaraq ki, təbii ki, burada fövqəlgüclərin təsir faktorunu heç bir yerə köçürə bilməzsiniz.

Bundan əlavə, Azərbaycan Qoşulmama Hərəkatına rəhbərlik etdiyi dövrdə təşkilatın rolunun inkişafı üçün əlindən gələni edir. Belə ki, Bakının təşəbbüsü ilə Nyu-Yorkda Hərəkata dəstək ofisi yaradılacaq, strukturun Parlament və Gənclər Şəbəkəsi yaradılacaq. Gördüyümüz kimi, artıq Bakıda təşkilatın yeni təsisatlarının təsis yığıncaqları keçirilib.

Bu gün iki ən güclü sınaq, qlobal qlobal siyasi arxitekturanın sabitsizləşdirilməsinin iki ən ciddi mərhələsi - pandemiya və qlobal beynəlxalq təhlükəsizliyin sarsıdılması yeni çağırışlar və yeni vəzifələr yaradır. Dünya görünməmiş problemlərlə üz-üzədir. Və bu şəraitdə Azərbaycanın sədrliyi ilə Qoşulmama Hərəkatı öz mövcudluğunun zəruriliyini getdikcə daha çox sübut edir.

Son illərin pandemiyası bu gün baş verənləri gözləmək üçün yalnız bir ilkin sınaq idi.

Soyuq Müharibə dövründə Qoşulmama Hərəkatı ümumi təhlükəsizlik sistemində çox mühüm rol oynamışdır. Hərəkat beynəlxalq vəziyyətin bir çox istiqamətlərinə təsir etdi. Hər kəs Qoşulmama Hərəkatının - Sovet İttifaqının, yoxsa ABŞ-ın rəyinin miqyasın hansı tərəfinə düşəcəyini izləyirdi. Buna əsaslanaraq, oyunçular müvafiq vektora əməl etdilər. Bu gün tarix sanki təkrarlanır: dünya Qərb blokuna və bəlkə də hələ tam formalaşmamış, lakin konturları artıq izlənilən Şərq blokuna (Rusiya, Çin və onları dəstəkləyən ölkələrə) bölünüb. Bu, Qərbin hegemonluğuna qarşı çoxqütblülük uğrunda mübarizədir. Bu, suveren, müstəqil dövlətlərin öz fikri uğrunda mübarizəsidir.

Soyuq Müharibə dövründə müxtəlif güc mərkəzlərinin oyun qaydaları ən azı bir qədər aydın idisə, qarşıdurma müəyyən edilməsə də, müəyyən edilmiş qaydada baş verdi. İndi elə bir vəziyyət görürük ki, mübarizədə qaydalar yoxdur. Oyunun qaydaları hazırda Şərqi Avropada baş verən münaqişənin gedişində hazırlanır. Bu gün yeni beynəlxalq memarlığın formalaşdığı dövrdür. Və Qoşulmama Hərəkatı yenə də çox mühüm rol oynaya bilər. Bunu necə daha yaxşı etmək, Hərəkatın mexanizmindən necə istifadə etmək mümkün olduğunu müəyyən etmək Azərbaycanın və onun unikal, tarixi missiyasının vəzifəsidir.

Niyə məhz Azərbaycan bu istiqamətdə təsir göstərə bildi? Diplomatik cəbhələrdə Azərbaycan bir-birinin ardınca qələbələr qazanır. O, nəinki öz coğrafi mövqeyindən, zəngin təbii sərvətlərindən səmərəli istifadə etməyi bilir, o, ən müxalif qüvvələrlə münasibət qurmağı, ən mürəkkəb diplomatik problemləri, siyasi düyünləri həll etməyi bilir. Azərbaycan müxtəlif qüvvələrlə necə qarşılıqlı əlaqə qurmağı, tərəfdaşlıq əlaqələri qurmağı, məsələləri uzunmüddətli perspektivdən necə həll etməyi bilən müstəqil ölkədir. Əliyevin səmərəli siyasətinin qurulduğu təməl budur.

Bildiyimiz kimi, ötən il Rusiya Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyi ilə strukturda müşahidəçi statusu alıb. Bu fakt Rusiya ilə Azərbaycan arasındakı münasibətləri mükəmməl şəkildə nümayiş etdirir. Rusiya və Azərbaycan liderləri arasında çox yaxşı münasibətlər ciddi bir kozırdır. Bizim münasibətlərimiz qarşılıqlı hörmətə, bir-birimizin mövqelərinə, milli maraqlarına anlayışa əsaslanır. Buna görə də biz həmişə kompromis və qarşılıqlı faydalı həll yolları tapacağıq. O cümlədən, bugünkü inkişaf edən beynəlxalq memarlıqda.

***Tərcümə - Elçin Bayramlı***

# “Ermənilər yenidən müharibə istəsəydilər,...”

**“Hazırkı vəziyyətdə Ermənistanın müharibə istəyi olduğunu düşünmürəm. Birincisi, rəsmi İrəvan çox gözəl anlayır ki, mövcud durumda onların qalib Azərbaycan əsgərləri ilə üz-üzə gəlməsi bu ölkənin intihara sürüklənməsi deməkdir. Yəni, yenidən İkinci Qarabağ müharibəsində yaşadıqları taleyi yaşamaq onlar üçün sözün həqiqi mənasında fəlakət olar. İkincisi, erməni xalqının özünün də müharibə istəmədiyi qənaətindəyəm”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Elçin Abdullayev deyib.**



Onun sözlərinə görə, ermənilər yenidən müharibə istəsəydilər, Qarabağda müharibə istəyən siyasi liderlərini qoyub, onları məğlubiyyətə uğradan baş nazir Nikol Paşinyana yenidən səs verməz, onu növbəti illər üçün Ermənistanın idarəçilik sükanı arxasına keçirməzdilər: "Üçüncüsü, bilirsiniz ki, həm hərbidə, həm də iqtisadiyyatda düzənli sistem olmalıdır. Ermənistanda isə nə hərbi, nə iqtisadi, nə də sosial vəziyyət yaxşı deyil. Bu ölkədə dağıdılmış ordu, tükənmiş silah-sursat və tənəzzülə uğramış iqtisadiyyat açıq-aşkar ortadadır. Belə bir vəziyyətdə Ermənistanın hansı müharibəyə başlamaq istəyindən söhbət gedəcəyini anlaya bilmirəm.

Etiraf edirəm, sadaladıqlarıma rəğmən, Azərbaycan-Ermənistan sərhədində, o cümlədən Qarabağda vəziyyət heç də ürəkaçan deyil. Təbii, bunu da körükləyən qüvvələr var. Bu qüvvələr isə bir daha təkrar edirəm Ermənistan əhalisi və rəhbərliyi deyil. Bölgədə vəziyyəti qızışdırmaq, müharibə ritorikasını ucaldan qüvvələr şübhəsiz ki, düşmən ölkəyə havadarlıq edən dövlətlərdir. O cümlədən də vəziyyətin gərginləşməsində Rusiya izini rahatlıqla görmək mümkündür. Qarabağ daxil, bütün post-sovet respublikalarında məqsədli şəkildə yaradılmış bütün konfliktlərin hamısı Kremlin adı ilə bağlıdır. Bu gün isə Moskva dünya birliyi tərəfindən təklənib. Rusiya istəyir ki, özünün nəzarətində olan geosiyasi zonalarda təsir imkanlarını daha da genişləndirərək, mövqelərini gücləndirmək və özünün mövcudluğunu dünyaya sübut etsin. Rusiya bu niyyətini Qarabağda ermənilərin əli ilə etmək istəyir.

Ona görə də düşünürəm ki, Rusiyanın bu istəyini dərk edən Ermənistanın ictimai-siyasi elitası nəinki, Azərbaycanla müharibəyə getmək istəyirlər əksinə onlar Rusiyanın morianetkası rolunu oynamaqdan xilas olmağa çalışırlar. Sadəcə mövcud situasiya bu bədbəxt xalqın boyunduruq altından çıxması üçün yetərli deyil”.

***Arzu Qurbanlı***

# Təsdiq edilmişdir:

*"OMNİ" Qapalı Səhmdar Cəmiyyətinin Ümumi Yığıncağının*
*28 iyun 2022-ci il tarixli qərarı ilə*

# "OMNİ" Qapalı Səhmdar Cəmiyyətinin 2021-ci il üzrə İllik Hesabatı

"OMNİ" Qapalı
Səhmdar Cəmiyyətinin

- Direktoru **Roman Alloyarov**

- Baş mühasib vəzifəsini
icra edən şəxs **Fazil Cabbarov**

Bakı 28 iyun 2022-ci il

"OMNİ" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra "Emitent") bu hesabatı Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin № 10q, 03 fevral 2016-cı il tarixdə qəbul etdiyi "Emitentin idarəetmə hesabatlarına dair tələblər haqqında" Qaydalarına uyğun tərtib edilmişdir.

**1.** Emitentin tam adı: "OMNİ" Qapalı Səhmdar Cəmiyyəti;
Emitentin qısaldılmış adı: "OMNİ" QSC;
Emitentin vergi ödəyicisinin eyniləşdirmə nömrəsi: 1700160671
Emitentin dövlət qeydiyyatının tarixi və nömrəsi: 05.11.2003, 1700160671.

**2.** Emitentin hüquqi ünvanı: Bakı şəhəri, Səbail rayonu, Böyük Qala küçəsi 37;
Emitentin olduğu yer: Bric Plaza, Bakı şəhəri, Bakıxanov küçəsi 24.

**3.** Emitentin dövlət qeydiyyatına alınması tarixindən sonra Emitentin adında və təşkilati-hüquqi formasında heç bir dəyişiklik olmamışdır. Emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaranmamışdır. Emitent hüquqi şəxslərin birləşməsi şəklində yenidən təşkil yolu ilə yaranmamışdır.

**4.** Emitentin 2021-ci il ərzində filial və nümayəndəlikləri yaradılmamış və ya ləğv edilməmişdir.

**5.** Emitentin 2021-ci il ərzində hər hansı törəmə cəmiyyəti yaradılmamış və ya ləğv edilməmişdir.

**6.** Emitent heç bir şirkətlər qrupuna daxil deyildir.

**7.** Emitent aşağıdakı fəaliyyət istiqamətləri ilə məşğul olur:

**7.1.** Hüquq xidmətlərinin göstərilməsi.

**8.** Emitent lisenziya üzrə hər hansı bir fəaliyyətlə məşğul olmur.

**9.** Emitent tərəfindən təklif edilən xidmətlər aşağıdakılardan ibarətdir:

**9.1.** Şirkətlərin təsis edilməsi və dövlət qeydiyyatına alınması;

**9.2.** Mülki məhkəmə icraatında iddiaçı və ya cavabdehin maraqlarının müdafiəsi;

**9.3.** Müxtəlif sahələr üzrə müqavilələrin tərtib olunması, bağlanması, icrası, müqaviləyə dəyişikliklər edilməsi və müqaviləyə xitam verilməsi ilə bağlı mübahisələrin tənzimlənməsi;

**9.4.** Azərbaycan Respublikasının mülki, vergi, əmək, bank, rəqabət, anti-inhisar və digər qanunvericilik sahələrinə dair məsləhətlərin verilməsi.

**10.** Emitentin işçilərinin sayı 12 (on iki) nəfər olmuşdur. Hesabat dövrü ərzində işçilərin sayında mühüm dəyişiklik olmamışdır.

**11.** Emitentin idarəetmə orqanları aşağıdakılardan ibarətdir:

**11.1.** Cəmiyyətin təkbaşçı direktoru: Alloyarov Roman Valentinoviç

**12.** Emitentin fiziki şəxs olan səhmdarlarının sayı beşdir. Emitentin hüquqi şəxs olan səhmdarı yoxdur.

**13.** Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərə (payla-

| Səhmdarın Soyadı, Adı və Atasının adı | Qiymətli Kağızların Növü | Səhmdara Məxsus Olan Qiymətli Kağızların Sayı | Səhmlərin Nizamnamə Kapitalında Faiz Nisbəti |
|---|---|---|---|
| Alloyarov Roman Valentinoviç | adi adlı sənədsiz səhm | 19 (on doqquz) | 19% (on doqquz faiz) |
| Bayramova Aygün Hüseyn qızı | adi adlı sənədsiz səhm | 30 (otuz) | 30% (otuz faiz) |
| Məmmədov Riad Eldəniz oğlu | adi adlı sənədsiz səhm | 10 (on) | 10% (on faiz) |
| Zərgərli İsmayıl Fikrət oğlu | adi adlı sənədsiz səhm | 30 (otuz) | 30% (otuz faiz) |
| Vəzirova Xatun Rzaquliyevna | adi adlı sənədsiz səhm | 11 (on bir) | 11% (on bir faiz) |

ra) malik olan şəxslər üzrə məlumatlar aşağıdakı cədvəldə göstərilib:

**14.** Emitentin səhmdarlarının 2021-ci il ərzində keçirilmiş yığıncaqları haqqında məlumat:

**14.1.** 2021-ci il ərzində Emitentin səhmdarlarının iki ümumi yığıncağı keçirilmişdir:

**14.1.1.** Emitentin səhmdarlarının birinci ümumi yığıncağı 16 may 2021-ci il tarixdə keçirilmişdir. Yığıncaqda dividendlərin ödənilməsi haqqında qərar qəbul edilmidir.

**14.1.2.** Emitentin səhmdarlarının ikinci ümumi yığıncağı 16 iyun 2021-ci il tarixdə Bakı şəhəri, Bakıxanov küçəsi 24 ünvanında keçirilmişdir. Yığıncaqda Emitentin illik hesabatının, mühasibat balansının və mənfəət və zərər hesablarının təsdiqi haqqında qərar qəbul edilmişdir.

**15.** Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat:

**15.1.** Emitentin adi adlı səhmi (bundan sonra "Səhmlər") dövriyyədədir;

**15.2.** Səhmlərin dövlət qeydiyyat nömrəsi və dövlət qeydiyyat tarixi:
1010500K, 21 noyabr 2003-cü il;

**15.3.** Səhmlərin miqdarı və nominal dəyəri: 100 (yüz) ədəd, hər bir səhmin dəyəri 20 (iyirmi) manat;

**15.4.** Səhmlərin məcmu nominal dəyəri: 2000 (iki min) manat;

**15.5.** 2021-ci il ərzində Emitent tərəfindən Səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat: 2021-ci ildə 2,770,150 manat dividend ödənilmişdir;

**15.6.** Yuxarıda qeyd edilən Səhmlər istisna olmaqla, Emitent tərəfindən səhm və ya istiqraz emissiyası həyata keçirilməmişdir;

**15.7.** Emitentin Səhmlərinin yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer haqqında məlumat: "Bakı Fond Birjası" QSC, Bakı, Xətai rayonu, Babək pr, Ə.Quliyev 11/31, Babək Plaza 9-cu və 10-cu mərtəbələr, AZ 1025.

**16.** Hesabat dövrü ərzində Emitent tərəfindən xüsusi əhəmiyyətli əqdlər bağlanmamışdır.

**17.** Hesabat dövrü ərzində Emitent tərəfindən aidiyyəti şəxslərlə əqdlər bağlanmamışdır.

**18.** Ümumi yığıncaq 2021-ci il üzrə illik hesabatı 28 iyun 2022-ci il tarixdə təsdiq etmişdir.

**19.** 2021-ci il üzrə illik hesabat "Səs" qəzetində dərc ediləcəkdir.

## "OMNI" QSC MÜHASİBAT BALANSI 31 dekabr 2021-ci il tarixinə

(manatla)

| Bölümün,maddənin №-si | | 2021 | | 2020 | |
|---|---|---|---|---|---|
| | **AKTİVLƏR** | | | | |
| **1** | **Uzunmüddətli aktivlər** | | | | |
| 10 | Qeyri-maddi aktivlər | | | | |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 227 908,02 | | 294 059,48 | |
| 12 | Daşınmaz əmlaka investisiyalar | | | | |
| 13 | Bioloci aktivlər | | | | |
| 14 | Təbii sərvətlər | | | | |
| 15 | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | | | |
| 16 | Təxirə salınmış vergi aktivləri | | | | |
| 17 | Uzunmüddətli debitor borcları | | | | |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | | | | |
| 19 | Sair uzunmüddətli aktivlər | | | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **227 908,02** | | **294 059,48** |
| **2** | **Qısamüddətli aktivlər** | | | | |
| 20 | Ehtiyatlar | | | | |
| 21 | Qısamüddətli debitor borcları | 153 259,96 | | 355 091,08 | |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 2 182 971,53 | | 3 160 646,16 | |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | | | 8 500,00 | |
| 24 | Sair qısamüddətli aktivlər | | | | |
| | **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **2 336 231,49** | | **3 524 237,24** |
| | **CƏMİ AKTİVLƏR** | | **2 564 139,51** | | **3 818 296,72** |
| | | | | | |
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | | |
| | | | | | |
| **3** | **Kapital** | | | | |
| 30 | Ödənilməmiş nominal (nizamnamə) kapital | 2 000,00 | | 2 000,00 | |
| 31 | Emissiya gəliri | | | | |
| 32 | Geri alınmış kapital(səhmlər) | | | | |
| 33 | Kapital ehtiyatları | | | | |
| 34 | Bölüşdürülməmiş mənfəət(ödənilməmiş zərər) | 1 731 883,90 | | 2 770 969,47 | |
| | **CƏMİ KAPİTAL** | | **1 733 883,90** | | **2 772 969,47** |
| **4** | **Uzunmüddətli öhdəliklər** | | | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | | |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | | |
| **42** | **Təxirə salınmış vergi öhdəlikləri** | | | | |
| 43 | Uzunmüddətli kreditor borcları | | | | |
| 44 | Sair uzunmüddətli öhdəliklər | | | | |
| | | | | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDLƏİKLƏR** | | **0,00** | | **0,00** |
| | | | | | |
| **5** | **Qısamüddətli öhdəliklər** | | | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | | |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 236 553,71 | | 251 736,71 | |
| 53 | Qısamüddətli kreditor borcları | 69 339,66 | | 438 837,86 | |
| 54 | Sair qısamüddətli öhdəliklər | 524 362,24 | | 354 752,68 | |
| | **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **830 255,61** | | **1 045 327,25** |
| | **CƏMİ ÖHDƏLİKLƏR** | | **830 255,61** | | **1 045 327,25** |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **2 564 139,51** | | **3 818 296,72** |

0,00 0,00

**Direktor:** **Alloyarov Roman**

# Ermənistan Xəzərdəki İran limanlarında mal daşıyacaq?

*Onun dediyinə görə, əgər o vaxt İran bizə göstərdiyi hərbi yardımı bir neçə gün də gecikdirsəydi, biz artıq təslim olmağa hazırlaşırdıq*



...Əvvəla xatırladım ki, İranda sakinlərə verilən pasportlarda onların milliyyəti göstərilmir. Belə ki, İranda yaşayan bütün millətlərin nümayəndələrinin pasportlarındakı milliyyəti qrafasında, sadəcə olaraq iranlı göstərilir. Ona görə də, bu ölkədəki etnik xalqların sayını hesablamaq bir az çətinlik törədir.

Deyim ki, İranın Konstitusiyasında bu ölkədə yaşayan bütün etnik qrupların eyni hüquqa malik olduqları deyilir. İnanın, adamın "müsəlman ölkəsindəki" bu humanizmə lap "həsəd aparmağı" gəlir. Çünki, yenə də deyilənə görə, guya bu ölkədə yaşayan bütün etniklər öz ana dilində təhsil ala bilərlər... və ümumiyyətlə farslara məxsus bütün imtiyazlardan yararlana bilərlər.

Əslinə qalsa, İranda yaşayan etniklərin sayı elə də çox deyil. Yenə də deyilənə görə, İranda say hesabı ilə təqribən 10 milyona qədər kürd, 6 milyon bəluç, 1,6 milyona yaxın ərəb və 100 mindən bir az artıq erməni yaşayır.

Qeyd edim ki, mən İranda yaşayan azərbaycanlıların sayını göstərməkdə bir az çətinlik çəkirəm. Çünki əslində onlar etnik qrup yox, yerli xalqdırlar və bunu gözəl başa düşən farslar hər vəhclə azərbaycanlıların sayını az göstərməyə çalışırlar. Hətta deyim ki, onlar bu istiqamətdə ermənilərin xidmətindən də yararlanmağa çalışırlar. Nümunə üçün deyim ki, o gün erməni saytlarından birinə danışan erməni iranşünas İranda yaşayan azərbaycanlıların heç 10 milyona çatmadıqlarını bildirirdi.

Əslində, etiraf edək ki, bu elə də böyük önəm kəsb etmir. Çünki qeyri-rəsmi olaraq sayı 40 milyona yaxın deyilən azərbaycanlılar, bu gün 100 mindən bir az artıq ermənininin İranda əldə etdiklərinin bir faizini belə əldə edə bilməyiblər.

Baxın, bu gün İranda təkcə ermənilər uşaq bağçasından tutmuş universitetədək öz ana dillərində təhsil ala bilərlər. Alkoqollu içkilərin qadağan edildiyi İranda təkcə ermənilər içki içə bilərlər, çünki onlara yasaq yoxdur. Onlar üçün alkoqollu içkilərin hətta açıq satış belə mövcuddur. Özü də Tehranın lap mərkəzindəki erməni restoranında...

Onu da bildirim ki, İran hələ o vaxt Birinci Qarabağ döyüşlərində İrana ən böyük dəstək verənlərdən olub.

Qeyd edim ki, bunu sonradan ermənilərin birinci prezidenri Levon Ter-Petrosyan da etiraf etmişdi. Onun dediyinə görə, əgər o vaxt İran bizə göstərdiyi hərbi yardımı bir neçə gün də gecikdirsəydi, biz artıq təslim olmağa hazırlaşırdıq.

Deyim ki, İranın Ermənistana yardımları elə bu gün də davam edir. Deməli, ötən gün İranın Ticarətin Təşviqi Təşkilatının rəhbəri Əlireza Peymanpak İranın Ermənistanla ticarət əlaqələrindən danışarkən, İrandan bu ölkəyə 2,3 milyard dollarlıq texniki xidmətlər ixrac edildiyini bildirib. Bununla yanaşı, o texniki xidmətlərin ixracının əvvəlki illə müqayisədə 8 milyard dollara çatacağına ümid etdiyini bildirib. Onun sözlərinə görə, Ermənistan Avrasiya İqtisadi İttifaqının üzvü kimi guya xarici ticarəti genişləndirmək üçün hədəfdir.

Peymanpak daha sonra Tehran və İrəvan sənaye, mədənçıxarma, birgə sənaye klasterləri və texniki xidmətlər ixracının inkişafı kimi sahələrdə əlaqələri gücləndirmək barədə razılığa gəldiklərini bildirib. Tərəflər üçüncü ölkələrlə ticarət əlaqələrini genişləndirmək üçün də əməkdaşlığı gücləndirmək qərarına gəliblər.

Qeyd edək ki, Peymanpak jurnalistlər qarşısına çıxmazdan əvvəl İran-Ermənistan müştərək işçi qrupunun iclasında da iştirak edib. O, Tehran və İrəvanın Rusiya ilə əməkdaşlıq çərçivəsində tikinti materialları və ərzaq tədarük zəncirlərinin yaradılmasına dair sazişlər imzalaını da bildirib. Bunula yanaşı, bank sektoru, mədənçıxarma, yol tikintisi və ixrac sahələrində əlaqələri gücləndirmək barədə də razılığa gəliblər. Deyilənə görə, bu müqavilələr yaxın həftələrdə imzalanacaq.

Onu da bildirək ki, iclasda iştirak edən Ermənistan iqtisadiyyat nazirinin müavini İran və Ermənistanın bu ilin son 5 ayında ticarət dövriyyəsinin 245 milyona çatdığını, lakin bu rəqəmləri qeyri-qənaətbəxş hesab etdiyini bildirib. O, Sisian yolunun tikintisində İran şirkətlərinin olmasını alqışlayıb və bildirib ki, Ermənistan öz mallarını, o cümlədən Rusiyaya daşımaq üçün Xəzər dənizindəki İran limanlarından istifadə etməyə hazırdır.

***Ağasəf Babayev***

# Qərblə Rusiyanın münasibətləri uzun illər düzəlməyəcək



Rusiya-Ukrayna müharibəsi bütövlükdə dünya iqtisadiyyatına nəzərəçarpan dərəcədə təsir göstərməkdədir. Demək olar ki, bütün ölkələrdə, o cümlədən iqtisadi cəhətdən ən çox inkişaf etmiş ölkələrdə belə enerji daşıyıcılarının qiymətlərinin artması və inflyasiya səviyyəsinin yüksəlməsi, bəzi xammal növləri üzrə təklifin azalması, ənənəvi beynəlxalq logistika proseslərinin pozulması və nəticədə qlobal miqyasda yükdaşımaların qiymətlərinin qalxması məhz Rusiya-Ukrayna müharibəsinin qlobal iqtisadiyyatda təzahür edən ilk görüntüləridir. Amma fəsadlar bununla da bitmir. Rusiyaya qarşı qəbul edilmiş sanksiyaların zəncirvari reaksiya şəklində qlobal həyata daha çox dəyişikliklər gətirəcəyi qaçılmazdır. Müharibə uzandıqca dünya iqtisadiyyatı daha ciddi resessiya təzahürləri ilə üzləşə bilər. Bütün bunların fonunda dünyanın enerji resursları bazarında tamamilə yeni bir konfiqurasiya yaranmaqdadır ki, ölkəmiz bundan çox yaxşı yararlana bilər. Belə ki, Rusiyadan neft və qaz alınmasına qarşı qəbul edilmiş yeni sanksiyalar paketi Azərbaycanın Avropanın enerji təminatındakı rolunu daha da gücləndirir və Azərbaycan qazına olan tələbat gözlənilməyən dərəcədə artır. Bu baxımdan, zamanında Azərbaycanın təşəbbüsü və səyləri nəticəsində Cənub Qaz Dəhlizi layihəsinin gerçəkləşdirilməsini çox uzaqgörən və uğurlu bir enerji siyasəti kimi dəyərləndirmək lazımdır.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü, Millət vəkili Cavanşir Feyziyev SİA-ya açıqlamasında bunları qeyd edir.

Bu ilin özündə, ilk 6 ay ərzində Azərbaycanda qaz ixracı keçən illə müqayisədə 30%-ə yaxın artıb və bu artım il boyu da davam edəcək. İndi Azərbaycan qazı üçün alıcı problemi yoxdur, əksinə yeni yataqların kəşf edilməsinə və satışa çıxarılacaq qaz həcminin dəfələrlə artırılmasına ehtiyac var. Yaranmış yeni vəziyyət Orta Asiya yataqlarından çıxarılan təbii qaz ehtiyatlarının da ölkəmiz üzərindən Avropa bazarlarına çıxarılması üçün əlverişli şərait yaradıb. Əminəm ki, bütün bunlar dünya qaz bazarında Azərbaycanın rolunu daha da artıracaq.

### Bəs ölkə iqtisadiyyatına müsbət təsirlərindən nə deyə bilərsiniz?

Azərbaycan dünyada neft-qaz ölkəsi kimi qavranılır. Bu da ilk növbədə neft-qaz gəlirlərinin ölkə iqtisadiyyatında aparıcı rol oynaması ilə bağlıdır. Yəni iqtisadiyyatımızda baş verən bütün müsbət tendensiyalar öz başlanğıcını neft-qaz gəlirlərindən və onun artımından götürür. Dünyada baş verən bir çox hadisələr, o cümlədən müharibələr də ilk növbədə enerji resurslarının qiymət artımı ilə müşayiət olunur. Bu baxımdan Rusiya-Ukrayna müharibəsi də istisna deyil. Zənnimcə, son yarım il ərzində bu qiymətlərin artımı, xüsusilə müharibə başlayandan sonra neftin qiymətinin bir barel üçün 120 dollardan da yuxarı qalxması və təbii qaz qiymətinin 1000 dolları ötüb keçməsi məhz bu müharibənin fəsadlarıdır. Aydındır ki, enerji qiymətlərinin bahalaşması Azərbaycana çox böyük faydalar gətirir. Bu ilk növbədə ölkədə fiskal sabitliyin təmin olunması, büdcə gəlirlərinin profisitlə təmin edilməsi və iqtisadi proseslərin daha dayanıqlı şəkildə davam etdirilməsi üçün ehtiyat yastığının formalaşmasına şərait yaradır. Xüsusilə, azad olunmuş ərazilərin bərpa edilməsi üzrə nəhəng tikinti-quruculuq layihələrinin həyata keçirildiyi bir dövrdə gəlirlərimizin bu qədər artması görüləcək işləri daha da sürətləndirmək üçün əlverişli fürsət yaradır. Bu məcburi köçkünlərimizin də daha tez bir zamanda öz doğma yurdlarına qayıtmasına öz təsirini göstərəcək.

Bununla yanaşı, Rusiya-Ukrayna müharibəsi və bununla bağlı Rusiyaya qarşı tətbiq olunan sanksiyalar bütün Avrasiya miqyasında nəqliyyat-kommunikasiya infrastrukturunun xəritəsini də kökündən dəyişir. Avropa ilə Asiya arasında ənənəvi olaraq Rusiyadan keçən bütün nəqliyyat yolları və vasitələri, o cümlədən hava yolları qlobal nəqliyyat xəritəsində öz əhəmiyyətini itirir. Belə nəhəng miqyaslı dəyişikliklər Cənubi Qafqazdan keçməklə Qərblə Şərq və Şimalla Cənub arasında əlaqələri təmin edən nəqliyyat infrastrukturunun əhəmiyyətini dəfələrlə artırmış olur. Azərbaycan isə məhz bu yolların qovşağında qərar tutur və vaxtilə Azərbaycan dövlətinin beynəlxalq əhəmiyyətli nəqliyyat kommunikasiyaları layihələrinə yatırdığı sərmayələrin bu gün gözlənildiyindən daha artıq mənfəət gətirəcəyinə heç bir şübhə qalmır.

Digər bir təsir sahəsi də Rusiyanın daxili bazarı ilə bağlıdır. Belə ki, əvvəllər dünyanın bir çox ölkələrindən Rusiyaya idxal olunan məhsul və xidmətlərin dayandırılması və müvafiq olaraq Rusiyaya ixrac imkanlarımız dəfələrlə arta bilər.

### Rusiyaya olan sanksiyalar davam etsə ölkəmizdə yenə bahalaşma ehtimalı olacaqmı?

Əlbəttə, sadə məntiq onu deyir ki, Rusiyaya qarşı tətbiq olunan sanksiyalar Azərbaycanda davamlı bahalaşma trendi yarada bilməz. Ən azı ona görə ki, bizim Ermənistan kimi Rusiyadan idxal asılılığımız yoxdur. Artıq məlumdur ki, sanksiyaların tətbiq olunduğu ilk mərhələdə bütün dünyada və istisna deyil ki, o cümlədən Azərbaycanda da inflyasiya meylləri güclənib və bu da bir sıra məhsul və xidmətlərin qiymət artımına səbəb olub. Amma sonrakı dövrlərdə bahalaşmanın məhz bu sanksiyalarla bağlı ola biləcəyini təxmin etmirəm. Əksinə, düşünürəm ki, yaranmış yeni şəraitdə bir sıra məhsulların ixracında gözlənilən artımlar, o cümlədən neft-qaz ixracının və eləcə də nəqliyyat daşımalarının artımı ölkəyə valyuta axınını gücləndirməli və milli valyutamızın möhkəmlənməsinə, yəni inflyasiyanın əksi olan deflyasiyaya gətirib çıxarmalıdır. Məncə, bu sanksiyalar fonunda Azərbaycanın əldə edəcəyi mənfəətlər və ya artıra biləcəyi gəlirlər ölkəmizdə maliyyə sabitliyini gücləndirə bilər və iqtisadi inkişafı daha da sürətləndirə bilər. Amma bu mənim şəxsi qənaətimdir və əminəm ki, bunu iqtisadçılar və maliyyəçilər daha dolğun şərh edə bilərlər.

Neft sənayesi üzrə ekspert İlham Şaban bildirir ki, Rusiya-Ukrayna müharibəsi təkcə Azərbaycan qazına olan tələbatı artırmır, ümumillikdə Rusiyanın başqa bir Avropa ölkəsinin ərazisini zor güc ilə dəyişmək arzusuna etiraz olaraq Rusiyanın enerji daşıyıcılarından imtina etmək qərarına gəlir. Əlbətdə bu bir anda olmayacaq, lakin yavaş-yavaş baş verəcək. Avropanın getdiyi yol Rusiya enerji daşıyıcılarından tamamilə imtina etməkdir. Bu nə zaman real olacaq hələlik bəlli deyil. Amma nəticə odur ki, onlar Rusiyanın qazından, neftin və neft məhsullarından, kömüründən imtina edəcəklər. Və bu zaman digər mənbələr hesabına Rusiyanın enerji daşıyıcılarını əvəzləmək məsələsi ortaya çıxır. Buna görə də hal-hazırda qərb bazarında enerji daşıyıcılarına olan tələbat yüksəkdir, nəticəsində də xidmət yüksəkdir. Enerji istehsalçısı olan bir ölkə kimi bundan zamanında yararlanmalıyıq ki, sonrakı dövrlərdə artıq digər ölkələrlə müqayisədə rəqabətdən geri qalmayaq.

### Rusiyaya tətbiq edilən sanksiyalar ümumillikdə nəyə gətirib çıxaracaq?

Ticarət əlaqələri 60-cı illərdə formalaşmağa başlamışdırsa qaz əlaqələri 68-ci illərdən qurulmağa başlamışdır. Rusiya o bazardan çıxır və yerini digərlərinə verir. Bu baxımdan da ikinci tərəfdən isə Avropadan maşın mexanizmi, gündəlik tələbat mallarını idxal edir. Misal üçün keçən il Rusiyanın ümumillikdə idxalı 200 milyard dollar olmuşdur. Bunun təxminən 70 faizə yaxını Avropa və Amerikanın payına düşür. Təbii ki bu cür gərginlikdə qarşılıqlı ticarət getdikcə azalacaq. İndiki zamanda Sovet dönəmində daha kifayət qədər bir-birinə qarşı soyuq əlaqələri müşahidə edəcəyik. Rusiya-Ukrayna müharibəsi dayansa belə düşünürəm ki Qərblə Rusiya arasında bu soyuqluq uzun illər, bəlkə də 10 illiklər boyu davam edəcək.

Hesab edirəm ki, dünyada 50/60 il ərzində oturuşmuş bir uyğunluq pozulacaq və yeni təchizatçılar, yeni yollar axtarılacaq. Bu da yeni kapital qoyuluşu tələb edir. Nəticə etibarı ilə malların qiyməti artır və ya defisit olur.

***Havar Şəfiyeva***

# Azərbaycanın son 10 ildəki sosial-iqtisadi vəziyyəti

**Azərbaycanın sosial-iqtisadi inkişafının ən yüksək mərhəsi- son 10 ildəki vəziyyəti nəzərdən keçirməklə bu haqda düzgün fikrə gəlmək olar. Beş fundamental nəticə- qalib dövlət, beynəlxalq nüfuz, təhsilli cəmiyyət, böyük iqtisadi potensial və yüksələn rifah ölkənin 10 illik sosial-iqtisadi inkişaf nailiyyətlərini xarakterizə edir. Bu nailiyyətlər uzunmüddətli dövrdə ölkə iqtisadiyyatı üçün keyfiyyətcə yeni sosial-iqtisadi inkişaf simasının formalaşmasına böyük töhfə verəcəkdir. Əldə olunmuş nailiyyətlər son 10 ildə həyata keçirilən genişmiqyaslı hədəflərə hesablanmış islahatların nəticəsidir. Tarixdə az ölkə tapmaq olar ki, cəmi 30 il ərzində belə uğur hekayəsi yaza bilsin.**



Son 10 ildə ölkə iqtisadiyyatında makroiqtisadi sabitlik və dayanıqlıq təmin edilmiş, sosial rifahı dəstəkləyən iqtisadi artıma nail olunmuşdur. Ölkədə möhkəm siyasi-ictimai sabitlik və təhlükəsizlik, uzaqgörən daxili və xarici siyasət son 10 ildə qarşıya qoyulmuş mürəkkəb sosial-iqtisadi məqsədlərin, habelə ölkənin ərazi bütövlüyünün bərpa edilməsində həlledici rol oynamışdır. Milli iqtisadiyyatın aparıcı sahələrində müasir texnologiyaların geniş tətbiqi və keyfiyyətli insan kapitalının cəlbi nəticəsində məhsuldarlıq xeyli artmış, iqtisadiyyat sürətlə şaxələnmiş və daxili istehsal qlobal dəyər zəncirinə effektiv inteqrasiya etmişdir.

Azərbaycan 4-cü Sənaye İnqilabının aktiv mərkəzlərindən biri olmaqla xarici investorlar üçün böyük fürsətlər məkanına çevrilmişdir. Bu dövrdə milli iqtisadiyyat 15% böyümüş, qeyri-neft/qaz Ümumi Daxili Məhsul (ÜDM) isə 1,4 dəfə artmışdır. 2011-ci illə müqayisədə qeyri-neft/qaz ixracının 78,3% artmasına nail olunmuşdur.



Son 10 ildə iqtisadiyyat iki qlobal maliyyə böhranından uğurla çıxmış, ölkə iqtisadiyyatı xarici təsirlərə davamlı olmuşdur. 2014?2015-ci illərdə qlobal əmtəə bazarında neftin qiymətinin 3 dəfəyə qədər azalması, 2020-ci ilin əvvəllərindən başlamış və davam etməkdə olan pandemiya böhranı ölkədə makroiqtisadi sabitlik üçün ciddi təhdidlər yaratmışdır. Bütün bunlara baxmayaraq, çevik və effektiv iqtisadi idarəetmə hesabına ölkədə makroiqtisadi sabitlik, həmçinin əhalinin rifahı və sağlamlığı qorunmuşdur. 2021-ci ilin sonuna valyuta ehtiyatlarımız təxminən ÜDM-in həcminə bərabər olmuşdur ki, bu da milli iqtisadiyyatın xarici və daxili təsirlərə qarşı tam dayanıqlığını əks etdirir.

Həyata keçirilən köklü struktur-institusional islahatlar nəticəsində milli iqtisadiyyatın strukturu dəyişmiş, qeyri-neft sektorunun payı xeyli yüksəlmişdir. 2012?2021-ci illərdə qeyri-neft/qaz ÜDM-i hər il orta hesabla 3,5% artaraq, 2011-ci ildəki 25,4 mlrd manatdan 2021-ci ilə 57,8 mlrd manata, qeyri-neft/qaz sektorunun payı 2011-ci ildəki 48,8%-dən 2021-ci ildə 62,2%-ə çatmışdır. Bu dövrdə iqtisadi artımın əsas hərəkətverici qüvvəsi olan qeyri-neft/qaz sənayesi 2,3 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, informasiya və rabitə sahəsi isə 2,4 dəfə böyümüşdür.

Aparılan məqsədyönlü siyasət nəticəsində qeyri-neft sektorunda özəl sektorun payı əhəmiyyətli böyümüşdür. Həyata keçirilən uğurlu struktur-institusional islahatlar nəticəsində ÜDM-də özəl sektorun xüsusi çəkisi 2019-cu ildə 85% olmuş, pandemiya səbəbindən 2020-ci ildə bu göstərici 80,8%-ə ensə də, artıq 2021-ci ildə 83%-i ötmüşdür. Özəl sektorda inkişafın əsas aparıcı qüvvəsi qeyri-neft/qaz özəl investisiyaları olmuşdur. 2021-ci ildə qeyri-neft/qaz özəl investisiyaların cəmi qeyri-neft/qaz investisiyalarda payı 44,6%-ə çatmışdır. İqtisadiyyatda kiçik və orta biznesin dominantlığı xeyli yüksəlmişdir. Xüsusilə, dövlət investisiyaları hesabına yaradılmış müasir iqtisadi infrastruktur kiçik və orta sahibkarlığın inkişafını dəstəkləmişdir. Bu dövrdə qeydiyyatda olan KOB subyektlərinin sayı 3,1 dəfə artmış, qeyri-neft/qaz ÜDM-də payı isə 23,7% təşkil etmişdir. Qeyri-neft/qaz ixracın 25,5%-i KOB tərəfindən həyata keçirilir. KOB-un fəaliyyətinin dəstəklənməsi üzrə kredit portfeli 2018-ci ildən 1,5 dəfə artaraq 2021-ci ildə 4,4 mlrd manata çatmışdır.

Qeyri-neft/qaz sahələrinin, xüsusilə özəl təşəbbüslərin sürətli inkişafında xarici investisiyalar mühüm rol oynamışdır. 2011?2021-ci illərdə ölkənin qeyri-neft/qaz iqtisadiyyatına bütövlükdə 11,1 mlrd ABŞ dolları həcmində birbaşa xarici investisiya yatırılmışdır. Xarici investisiyalar yüksək məhsuldar sahələrdə rəqabətli dəyər zəncirinin inkişafına və müasir infrastrukturun yaradılmasına yönəldilmişdir. Xarici investorların fəal cəlbini əlverişli biznes mühiti və makroiqtisadi sabitlik şərtləndirmişdir.

Dövlət büdcəsi həm sosial rifahın dəstəklənməsində, həm də iqtisadi fəallıq üçün investisiyaların təmin olunmasında aktiv olmuşdur. Qlobal və daxili iqtisadi mühitdə baş verən dəyişikliklər dövlət büdcəsinin gəlirlərinə təsir etsə də, 2011-2021-ci illərdə dövlət büdcəsinin xərcləri nominal ifadədə 1,8 dəfə artmışdır.

Dövlət borcunun daxili və xarici seqmentləri makroiqtisadi sabitlik və büdcə dayanıqlığı hədəflərini dəstəkləmişdir. 2021-ci ilin 31 dekabr tarixinə məcmu dövlət borcu ÜDM-in 18,2%-ni təşkil edir ki, bu da fiskal dayanıqlıq baxımından məqbul səviyyədir. Daxili borclanmanın son illər genişlənərək 2021-ci ilin 31 dekabr tarixinə 2 mlrd 507 mln manata çatdırılması maliyyə bazarlarının inkişafı və effektiv fəaliyyəti baxımından əhəmiyyətlidir. Son 10 ildə ölkədə inflyasiya iqtisadi fəallıq üçün məqbul olan səviyyədə qorunmuşdur. Bu dövrdə illik inflyasiya orta hesabla 5,3% səviyyəsində olmuşdur.

Maliyyə sektorunun mühüm hissəsini təşkil edən bank sektorunda kapitallaşma və likvidlik səviyyəsi normaları 2 dəfəyədək üstələyir. Bu şəraitdə son 10 ildə bank aktivlərinin ÜDM-də payı 26,8%-dən 44,3%-ə yüksəlmiş, iqtisadiyyata kredit qoyuluşlarının həcmi 9,9 mlrd manatdan artaraq 17,1 mlrd manata çatmışdır. Depozitlərin həcmi (maliyyə sektoru çıxılmaqla) 3,9 dəfə artaraq 2011-ci ildəki 6,9 mlrd manatdan 2021-ci ildə 27,1 mlrd manata çatmışdır.

İqtisadi artım bütün vətəndaşların sosial rifahını yaxşılaşdırmışdır. Bu dövrdə ölkədə minimum əməkhaqqı 2,7 dəfə, orta aylıq əməkhaqqı 2,0 dəfə, pensiyaların minimum məbləği isə 2,3 dəfə artmışdır. Aztəminatlı ailələrə verilən ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə istifadə olunan ehtiyac meyarının məbləği son 10 ildə 2,3 dəfə artırılaraq 2011-ci ildəki 75 manatdan 2021-ci ildə 170 manata çatdırılmışdır.

Son 10 il ərzində ölkədə əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl genişmiqyaslı dövlət proqramları həyata keçirilmişdir. Bu dövrdə məşğul əhalinin sayı 14,0%, muzdla işləyənlərin sayı 22,9% artmış, işsizlik səviyyəsi isə pandemiya ilə əlaqədar dalğalanmalara məruz qalmasına baxmayaraq, 2021-ci ildə ölkə üzrə 6,0% təşkil etmişdir.

Ölkədə yoxsul təbəqənin ehtiyaclarının qarşılanmasına yönələn ünvanlı dövlət sosial yardımı genişləndirilmiş, aztəminatlı ailələrin təminatı daha da gücləndirilmişdir. Son 10 ildə aztəminatlı ailələrə verilən sosial yardımın orta aylıq məbləği 2,6 dəfə artırılaraq 2021-ci ildə 280 manata çatdırılmışdır. Həyata keçirilən tədbirlər nəticəsində, milli yoxsulluq həddindən aşağı səviyyədə yaşayan əhalinin xüsusi çəkisi 2019-cu ildə 2010-cu illə müqayisədə 9,1%-dən 4,8%-dək azalmışdır. 2020-ci ildə isə COVID-19 pandemiyası ilə əlaqədar qeyd olunan göstərici 6,2%-dək artsa da, 2021-ci ildə 5,9%-ə enmişdir.

Keyfiyyətli insan kapitalının hazırlanması prosesinin mühüm mərhələsi olan məktəbəqədər təhsildə göstəricilər yaxşılaşmışdır. Şəhər və kəndlər üzrə məktəbəqədər təhsilin əhatəlilik göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşmış, məktəbəqədər təhsil müəssisələrində tərbiyə alan və ümumtəhsil məktəblərində məktəbəhazırlığa cəlb olunmuş uşaqların 1?5 yaşlı uşaqların ümumi sayında xüsusi çəkisi son 5 ildə 16% bəndi artaraq 32%-ə çatmışdır.

Müəllimlərin son 10 ildə əməkhaqlarının 2,4 dəfə artırılması ümumi təhsil məktəblərində təhsil keyfiyyətinə müsbət təsir göstərmişdir. Ölkədə təhsilə çıxışın yaxşılaşdırılması məqsədilə müasir texnologiyaya əsaslanan təhsil infrastrukturu yaradılmışdır. 2003?2021-ci illərdə 3400-dən çox məktəb binası tikilmiş və ya əsaslı təmir edilmişdir ki, bu da bütün məktəblərin 76%-ni təşkil edir.

Keyfiyyətli səhiyyə xidmətlərinə əlçatanlıq davamlı yaxşılaşmışdır. Nəticədə, ölkədə ana və uşaq ölümü göstəriciləri azalmış, doğulanda gözlənilən ömür uzunluğu və gözlənilən sağlam ömür uzunluğu isə artmışdır. COVİD-19 pandemiyasına qədər ana ölümü hər 100000 nəfər diri doğulana 14,9, körpə ölümü hər 1000 nəfər diri doğulana 11, beş yaşa qədər uşaq ölümü 13, gözlənilən ömür uzunluğu 73,2 yaş təşkil etmişdir.

Hazırda qlobal iqtisadiyatda təlatümlər, böhranlar müşahidə olunur, lakin bu dəyişikliklərin ölkəmizə təsirlərini minimallaşdırmaq üçün ölkədə yüksək sosial-iqtisadi rifah və potensial formalaşdırılmışdır. Məhz uzunmüddətli dövrə hədəflənən strateji baxışın, zəruri resursların və texnoloji həllərin mövcud olması bunun təminatı kimi çıxış edir.

***Elçin***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb.*

SON SƏHİFƏ

Səs

27 iyul
2022-ci il

# Gündüz yatmağa aludə olmaq... insult risqini yüksəldir!



Axşam yeməyindən sonra yatmağı sevənlərin hipertoniya və insult keçirmə ehtimalı yüksəkdir. Amerika Ürək Assosiasiyası belə deyir. SİA-nın rus saytlarından əldə etdiyi məlumata görə, tədqiqatçıların nəticələri "Hypertension" jurnalında dərc olunub. Alimlər 360 000 orta yaşlı və yaşlı britaniyalıdan (40-69 yaş) məlumat əldə ediblər. Xüsusilə, bioloji mayelərin nümunələri (qan, sidik, tüpürcək) və həyat tərzini təsvir edən gündəlik

Qeyd edək ki, bunların arasından əvvəllər insult və hipertoniya xəstəliyi keçirməyənlər seçilib. Gündüz yuxusunun tezliyindən asılı olaraq, bütün subyektlər qruplara bölünüb. Məlumatları təhlil etdikdən sonra tədqiqatçılar belə qənaətə gəliblər ki, gündüz yatanların hipertoniyaya tutulma riski 12 faiz, insult keçirmə riski isə 24 faiz yüksəkdir. Eyni zamanda, insan nə qədər genc olsa, hipertansiyona meylli olma ehtimalı bir o qədər yüksəkdir (təxminən 20 faiz).

Bundan əlavə, tədqiqatın bəzi iştirakçıları gündüz yuxusunun gecə istirahətinin keyfiyyətini pisləşdirdiyini qeyd etdilər. Bu amil də öz növbəsində sağlamlığa təsir edir.

***Ağasəf Babayev***

# DİQQƏT:
## Süni qida boyalarının orqanizmə hansı zərərləri var




**Mütəxəssis açıqladı**

**"Qida boyaları təbii və süni qida boyaları olmaqla iki yerə bölünür. Təbii qida boyaları tərəvəzlərdən, göyərtilərdən və müxtəlif bitkilərdən əldə olunan qida boyalarıdır". Bu sözləri SİA-ya açıqlamasında qida üzrə baş mütəxəssis Ağa Salamov deyib.**

Onun sözlərinə görə, süni qida boyalarının təkibində isə kimyəvi qatqı maddələri olur: "Həmin süni qida boyaları demək olar ki, gündəlik həyatımızda bizi əhatə edir. Dondurmaların, un məmulatlarının, müxtəlif növ qazlı və rəngli içkilərin tərkibində yer alır. Uşaqların bir gündə dondurmanı, şirniyyatı, rəngli içkini qəbul etməsi hiperaktivliyin pozulmasına gətirib çıxarda bilir. Kimyəvi qida boyalarını gündəlik həyatımızda istifadə etsək, təbii ki, bu da xərçəng xəstəliyinin yaranmasına səbəb ola bilir. Buna görə də düşünürəm ki, insanlar daha çox ev şəraitində hazırlanan kompotlara üstünlük verməlidirlər. Çünki kompotu hazırladığımız meyvənin lifləri öz tərkibində qalır. Bunun da təbii ki, həzm prosesinə müsbət təsiri var. Bundan əlavə olaraq insanlar süni rəngli boyalardan hazırlanmış şirniyyatlara üstünlük verməməlidirlər. Süni rəngləndiricilər şirniyyatlarla yanaşı, həmçinin ət məhsullarının tərkibində də olur. Bu qidalar bədəndə xərçəng hüceyrələrinin yaranmasına və çoxalmasına gətirib çıxarır. Düşünürəm ki, ev şəraitində hazırlanan qidalara daha çox üstünlük verilməlidir".

***Arzu Qurbanlı***

# "Neymar PSJ-də sehrini itirdi"




**Dortmund "Borussiya"sının futbolçusu Tomas Menye PSJ-nin hücumçusu Neymar haqda danışıb. Qol.az goal.com-a istinadən xəbər verir ki, Belçika millisinin üzvü Paris təmsilçisindəki sabiq komanda yoldaşının PSJ-dəki sehrini itirdiyini deyib:**

"Etiraf etməliyəm ki, Neymar "Barselona"da olarkən onun böyük fanatı idim. Amma PSJ-də məncə, o, sehrini itirdi. Əvvəlki səviyyəyə qayıdış ondan asılıdır. 10 yaşım olsaydı, onun posteri otağımda asılardı".

Qeyd edək ki, Menye 2016-2020-ci illərdə PSJ-də oynayıb.

## Quba sakini arvadını və daha üç qohumunu bıçaqlayıb



Quba sakini Xaçmazda arvadını və daha üç qohumunu bıçaqlayıb. SİA-nın əldə etdiyi məlumata görə, hadisə Niyazoba kəndində qeydə alınıb.

Quba rayonunun Dağlı kənd sakini Niyaməddin Qiyaməddin oğlu Qədirov ailə münaqişəsi zəminində həyat yoldaşı, 1990-cı il təvəllüdlü Ülviyyə Teymur qızı Qədirovanı, Xaçmaz rayonunun Niyazoba kənd sakinləri: – qayınanası, 1965-ci il təvəllüdlü Zəkiyyə Nuruyevanı, qaynı, 1997-ci il təvəllüdlü Elçin Teymur oğlu Nuruyevi və baldızı, 1998-ci il təvəllüdlü Röya Teymur qızı Nuruyevanı bıçaqlayıb.

Yaralılar təcili tibbi yardımın köməyi ilə Xaçmaz Rayon Mərkəzi Xəstəxanasına çatdırılıblar.

# Lissabonda benzinin qiyməti qalxdı, ictimai nəqliyyat pulsuz oldu!

**Lissabonda yaşı 65-dən yuxarı olan şəhər sakinləri ictimai nəqliyyatdan pulsuz istifadə edə biləcəklər. 13-23 yaş arası gənclər üçün nəqliyyatdan pulsuz istifadə isə sentyabrda təklif olunacaq. Belə ki,pulsuz nəqliyyat sisteminin tətbiqi ictimai nəqliyyatdan istifadəni təşviq etmək, eləcə də əhalinin yoxsul təbəqələrini yanacağın qiymətinin kəskin artımından qorumaqdır.**




Lissabon meri Karlos Moedaşın sözlərinə görə, bu tədbir ekoloji davamlılıq məqsədlərinin, iqlim dəyişikliyi ilə mübarizənin bir hissəsidir. O bildirib ki, Lissabon Avropada bu tədbiri həyata keçirən ilk böyük paytaxtdır və bu tədbir digər şəhərləri və ölkələri də oxşar təşəbbüsə ruhlandırmalıdır.

Qeyd edək ki, 2022-ci il aprelin 21-də Lissabon Şəhər Şurası 2025-ci il dekabrın 31-dək qüvvədə olacaq şəhərdə pulsuz ictimai nəqliyyat təklifini yekdilliklə təsdiqləyib. Yarım milyondan çox əhalisi olan şəhərə bu tədbirin təxminən 15 milyon avroya başa gələcəyi gözlənilir.

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**